

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 42 (24.424)
19 oktyabr 2024-cü il, şənbə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*




# Ümummilli Liderin ideyaları işığında – müstəqil, suveren, qalib Azərbaycan

Azərbaycan 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik respublika kimi öz müstəqilliyini elan etsə də, təəssüf ki, bu müstəqilliyin əldə saxlanılması qısa zamanı – cəmi 23 ayı əhatə etdi. Yetmiş il sovet ittifaqının tərkibində qaldıqdan sonra xalqımız əsrin sonlarına yaxın, nəhayət ki, öz müstəqilliyini bərpa etməyə müvəffəq oldu. 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. Həmin dövrdə mövcud mürəkkəb siyasi vəziyyət, hakimiyyət çəkişməsi, I Qarabağ müharibəsinin yaratdığı ciddi təhlükələr nəticəsində 70 il öncəki aqibət yenidən yaşanacaqdı. Ancaq xalqımızın taleyi üzünə güldü, bəxti onda gətirdi ki, əsrin əvvəlindən fərqli olaraq sonunda onu nicat yoluna çıxarmağa qadir, müstəqilliyini qorumağa müvəffəq Ümummilli Lideri Heydər Əliyev var idi. Həmin keşməkeşli tarixi yaşayan, mənfur siyasi oyunlara sipər çəkərək xalqına azad yaşamaq hüququ qazandıran Ulu Öndər müstəqilliyin xalq, ölkə naminə əvəzolunmaz nemət olduğunu vurğulayaraq onun qorunmasını hər bir insan üçün həyati əhəmiyyətli hadisə, vacib amil hesab edirdi: ***"Biz azadıq, müstəqilik, sərbəstik. Biz heç kəsdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik. Bilirsiniz, bunun üçün, yalnız bunun üçün aylarla, illərlə əziyyət çəkmək olar. Məhz bunun üçün illərlə ac qalmaq olar. Çünki əsrlər boyu ulu babalarımız, Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar, milli azadlıq, müstəqillik üçün mübarizə aparmışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq. Bilin ki, indi bunu əlimizdə saxlamaq, qorumaq hər bir insan üçün canından da artıqdır. Mən sizə deyirəm, bunu bilin, Azərbaycanın müstəqilliyini qorumaq, saxlamaq, onu əbədi etmək mənim üçün öz həyatımdan, canımdan artıqdır".***

Bu gün hər bir azərbaycanlı görkəmli dövlət xadiminin ölkəmizi müstəqilliyə, Milli Qurtuluşa aparan yolunu – 1990-cı ilin iyul ayında görkəmli dövlət xadiminin Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdışını böyük qürur və ehtiramla xatırlayır. Siyasi şərhçilər, politoloqlar haqlı olaraq həmin tarixi hadisəni böyük qurtuluş – Vətəndən başlanan yolun başlanğıc günü adlandırırlar. Bəli, məhz 1990-1993-cü illərdə Naxçıvanda verilən tarixi qərarlarla müstəqil Azərbaycanın təməl prinsipləri formalaşdırılıb. 1993-cü ildə isə xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıtmaqla Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədilik məqamına ucaltdı. Tarixi, siyasi hadisələr göstərir ki, əslində, Azərbaycan əsl müstəqilliyinə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qovuşdu. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Dahi şəxsiyyət Heydər Əliyev müstəqil Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan etməklə ölkənin tarixi irsə hörmət prinsipləri əsasında, sağlam təməllər üzərində yeni inkişaf xəttini qurdu. Görkəmli dövlət xadiminin yoluna, Onun ideyalarına sədaqətin ifadəsi olaraq 2021-ci il oktyabrın 15-də Milli Məclis Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə "Müstəqillik Günü haqqında" yeni Qanunu təsdiqlədi. Qanuna əsasən mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan olundu.

Ümummilli Liderin yorulmaz səyləri nəticəsində qısa müddətdə Azərbaycanın səsi dünyanın ən nüfuzlu təşkilatlarından, yüksək kürsülərdən gəldi, eyni zamanda daxili sabitlik bərqərar edildi, cəbhədə atəşkəsə nail olundu, bütün proseslərdə qanunun aliliyi əsas götürüldü, hüquqi-demokratik, dünyəvi dövlətçilik modeli formalaşdırıldı. İqtisadi sahədə mühüm addımlar atıldı, xarici neft şirkətləri ilə bu il 30 illiyi tamam olan "Əsrin müqaviləsi" imzalandı ki, nəticədə, Azərbaycanın iqtisadi inkişafını şərtləndirən nəhəng layihələr gerçəkləşdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Bununla da ölkəmizin bugünkü və gələcək uğurlarının əsası qoyuldu, müstəqil siyasətin təməli daha da möhkəmləndirildi.

Səhifə ➡ 3

## Zəngilanda ucalan vüqarımız



Səhifə ➡ 4

## Ali Məclis sədrinin birinci müavini və Aparatın əməkdaşları sərgi-satış yarmarkasında olub



Səhifə ➡ 5

## Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı ilə tədbirlər olub



Səhifə ➡ 5

## Böyük Qayıdış siyasətinə rəğbətin ifadəsi – MDB-nin mədəniyyət paytaxtı LAÇIN



Səhifə ➡ 3

## Ordubad şəhərindəki Cümə məscidində aparılan təmir-bərpa işləri yekunlaşır



Səhifə ➡ 10

# Ürəklərimizdə əbədiyaşarlıq qazanmış LİDER



## Onun məqsədi bugünkü Azərbaycan idi...

Yunan filosofu Platon yazırdı: *"Ağıllı dövlət başçısı baş verə biləcək hadisələrin qarşısını peşəkarcasına almaqla, əslində, öz dövlətinə və xalqına xidmət edir".*

Tarixdə böyük işləri, əməlləri ilə dərin izlər qoymuş şəxsiyyətlərin fövqündə dayanmaq kimi böyük və fövqəlbəşər reytinq qazanmaq hər kəsə nəsib olan xoşbəxtlik deyil. Xalqımızın böyük oğlu Heydər Əliyev belə xoşbəxtliyə nail ola bilmişdi. Ancaq bu Ona asan başa gəlməmişdi. Bu gün Ulu Öndərimiz haqqında keçmiş zamanda danışmaq çətin olsa da, təskinliyimiz ondadır ki, O, ürəklərimizdə əbədi yaşamaq hüququ qazanıb, bizim bu günümüzü düşünüb, bütün bilik və bacarığını, rəhbərlik istedadını bu yola sərf edib.

...Azərbaycanın daha da gözəl günlər yaşamasını təmin etmək üçün gecəli-gündüzlü fəaliyyət göstərən bu böyük insanda olan enerjiyə dünyanın siyasi xadimləri də həsəd aparırdılar. Bu enerji ömrünü bütünlüklə öz xalqına həsr edən insana verilmiş İlahi vergi idi və xalqımız belə şəxsiyyətlə haqlı olaraq qürur hissi keçirir. Xüsusilə qeyd edilməlidir ki, öz şəxsi keyfiyyətləri ilə əsl millilik, vətənpərvərlik, böyüklük, dahilik rəmzi olan Heydər Əliyev xarakteri, ilk növbədə, Azərbaycançılıq xüsusiyyəti ilə açılırdı. Böyüklük, dahiliklə yoğrulmuş xarakter, şəxsiyyət həmişə böyük işlər görməklə formalaşıb. Bu böyüklük, dahilik hər şeydən uca olan Azərbaycançılıq missiyasından yaranmışdı. Onun üçün Vətən adlı bir sevgi idi Azərbaycançılıq. Və müəllifi də Ulu Öndər özü idi. Digər insani keyfiyyətlər də məhz bu mənbədən qaynaqlanırdı. Rəhbərlik təcrübəsinin kökü də bunun üzərində qurulmuşdu.

Dəfələrlə sübut olunub ki, rəhbər üçün ən böyük keyfiyyətlərdən biri, sözün əsl mənasında, milli mentalitetə malik olmaq, zamanı qabaqlamaq bacarığıdır. Dahi Öndər Heydər Əliyev də hadisələrin gedişini geniş zaman çərçivəsində izləyir və bundan çox uzaqlara gedən nəticələr çıxarırdı. Daha doğrusu, lap uzaq gələcəyi görmək qabiliyyəti var idi onda. Görkəmli dövlət xadiminin həyat və siyasi fəaliyyətində qazandığı uğurlarda bu amil başlıca rola malik idi. Dahi öndərin özünə, həyata keçirdiyi məqsədyönlü və uzaqgörən siyasətə yaxından bələd olan sabiq ABŞ prezidenti Bill Klinton da, yəqin ki, buna görə deyirdi: *"Heydər Əliyev təkcə Azərbaycanı yox, bütün dünyanı idarə etməyi bacaran siyasi xadimdir".*

...İctimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə demokratiyanın yaranıb inkişaf edə bilməsini, onun hüdudlarının genişliyini dəfələrlə bəyan edən, hər xalqın mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişafını vurğulayan Ümummilli Lider qətiyyətlə bəyan edirdi ki, nə burada, nə də Azərbaycandan kənarda heç kəs narahat olmasın; Azərbaycan demokratiya yolu ilə gedir və gedəcəkdir. Bu yolun alternativi yoxdur. Və bu qənaətin də özünü doğrultduğunu hamımız gördük. Heydər Əliyev siyasətinin gücünə inanmayanlar isə böyük səhv etdiklərini...

Demokratik Azərbaycan dövlətinin müstəqilliyinin bərqərar olmasını xalqımızın həm iqtisadi, həm də mənəvi qələbəsi sayırdı Ulu Öndər. Ölkəmizdə dövlətçilik ənənələrinin zənginləşdirilməsində, müstəqilliyimizin daha da möhkəmləndirilməsində, onun əbədiliyinin və dönməzliyinin təmin olunmasında hər birimizin məsuliyyət daşımasını vurğulayır, Azərbaycanın müstəqillik kimi bir sərvətini xalqımız üçün böyük nailiyyət hesab edir, həyatının ən çətin anlarında, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqa arxalandığını deyirdi. Xalqımızın bugünkü birliyinin təməlində də Azərbaycanın müstəqilliyi, Vətənimizin suverenliyi, torpaqlarımızın bütövlüyü uğrunda var qüvvəsi ilə çalışan, heç bir terrordan, heç bir hədə-qorxudan çəkinməyən Ulu Öndərimizin mübarizələrlə dolu həyat təcrübəsi dayanırdı. Təbii ki, belə zəngin həyat təcrübəsi keçilən uzun bir yolda qazanılmışdı. Ancaq o da etiraf olunmalıdır ki, bu yol heç də hamar olmayıb. Ulu Öndər isə başladığı yoldan bir addım da geri çəkilməyib, öz şəxsi nüfuzu, idarəetmə bacarığı ilə qarşısına qoyduğu məqsədə çatıb. Bu məqsəd bugünkü Azərbaycandır. Və hər bir azərbaycanlının eyni xalqın övladları olduqları üçün dahi şəxsiyyətlə qürur duymasına mənəvi haqqı çatır.

Bu da aksiomdur ki, görkəmli dövlət xadimi Heydər Əliyev həm də Azərbaycan xalqının yetirdiyi böyük şəxsiyyətlərin fövqündə dayanmaq imici qazanıb. O da hər birimiz üçün böyük şərəfdir ki, bu həqiqəti dünyanın məşhur siyasi xadimləri də etiraf edirlər. Zbiqnev Bjezinski (ABŞ) yazırdı: *"O həqiqətən, beynəlxalq səviyyəli dövlət xadimi və tarixi əhəmiyyətli Milli Lider idi. O, Azərbaycanın müstəqilliyinin, ölkənin firavanlığa doğru inkişafının və demokratiyaya doğru yolunun əsasını qoydu".*

Ötən əsrin 60-cı illərini o dövrü yaşayanlar yaxşı xatırlayırlar.

Qədim və şanlı tarixə malik, başı saysız-hesabsız bəlalara düçar olmuş doğma Azərbaycan Onun hakimiyyətə gəlişinə qədər sanki sahibsiz bir respublika təsiri bağışlayırdı. Mövcud insan potensialından, yeraltı-yerüstü sərvətlərdən necə istifadə etmək Moskvanın əlində idi. Dahi Öndərin gəlişi isə bir neçə ay ərzində Moskvanı, necə deyərlər, 180 dərəcə dəyişdirdi. 35 il Azərbaycan peyğəmbərcəsinə idarə olundu. Heydər Əliyev idi bu Peyğəmbər. Hakimiyyətə Heydər Əliyev kimi gəlmişdi – peyğəmbərliyi isə fəaliyyəti dövründə qazanmışdı. Mövcudluğu dövründə xalqımızın nail olduğu bütün inkişaf tarixi də məhz bu illərin coğrafiyasındadır. Bu tarixi dahi öndər yazdı qızıl hərflərlə...

1969-cu ilin isti yay günlərinin birində Azərbaycana rəhbər təyin olunan Ulu Öndər Heydər Əliyev onu qarşıda gözləyən çətinlikləri özünəməxsus intuisiya ilə görürdü. Onun böyüklüyü də elə bunda idi ki, bu yollardakı mübarizənin ağırlığını da, son nəticələri də əvvəlcədən bilirdi.

Tanrı Onu bu xalqı düşdüyü bəlalardan qurtarmaq üçün yaratmışdı. O da görməli olduğu işi yerinə yetirməyə layiqliyini Tanrı və xalqımız qarşısında sübut etdi.

O gün Azərbaycan öz ikinci həyatını yaşamağa başladı. Xalq öz həqiqi xilaskarını başının üstündə gördü, dərindən və rahat nəfəs aldı. O xilaskar da fəaliyyətə bütün tarixi yeniliklərimizə, uğurlarımıza qara eynək arxasından baxan, üzdə bir, arxada ayrı cür hərəkət edən vəzifəli şəxsləri tutduqları və layiq olmadıqları postlardan təmizləməklə başladı. Onlar da qısa bir vaxtda başa düşdülər ki, qarşılarındakı elə-belə şəxsiyyət deyil – Heydər Əliyevdir bu...

...1983-cü ildə Heydər Əliyevin Moskvaya daha yüksək vəzifəyə irəli çəkilməsi bəzi siyasət adamları tərəfindən birmənalı qarşılanmadı. Mənə – sıravi bir jurnalistin düşüncəsinə görə, burada bir neçə məqam gizlənmişdi: imperiya başçıları ona ehtiyac duyduqlarını bəyan edəndə bunu alqışlarla qarşıladıq – doğrudan da, o bu vəzifəyə, hələ ondan da böyük vəzifəyə layiq idi; ikinci məqamın arxasında isə çox böyük və çirkin bir məqsəd dayanmışdı: Heydər Əliyevi Azərbaycandan ayırmaqla tarixən parçalanmaqda olan, Ulu Öndərin respublikaya rəhbərliyi dövrü qarşısı alınan bir çirkin oyunun davamına nail olmaq. Axı 1969-cu ilə kimi nə qədər torpaqlarımız mənfur siyasətə qurban getsə də, onun gəlişi ilə torpaqlarımızın "pay-püşü" dayandırılmışdı. Bu isə Moskvada oturan başbilənlərə və onların Ermənistandakı əlaltılarına xeyir vermirdi axı! Bütün bunlar reallıqdır. O da reallıqdır ki, Moskvada yaşayanda da, orada işləyəndə də bu böyük şəxsiyyətin əli xalqımızın çiynindən götürülmədi. Lakin daxildə sapı özümüzdən olan baltalar nələrsə etməyə çalışsalar da, məhz dahi şəxsiyyətin kiçik bir "gözağartması" milli mentalitetdən uzaq olan yerli başçıları öz yerlərində oturmağa məcbur edirdi.

...Təpələr üzərində ucalmış "zirvələr" özlərini və xalqı dərk etməkdən uzaq olurlar. Bu onların bəlasıdır, böyük və dəhşətli cılızlıqdır və ona görə də bələləri həmişə nifrətlə damğalanan məhvə məhkumdurlar. Tarix dəfələrlə sübut edib bunu – Vəzirovlar, Mütəllibovlar siyasətinin sonu həm özləri, həm də xalq üçün nə ilə nəticələndi? Yenidən Azərbaycanda hakimiyyətə qayıdan dahi rəhbər hər şeyi sıfırdan başlamalı oldu və sübut etdi ki, O kimdir! Fransız mütəfəkkiri Pol Anri Holbaxın gəldiyi qənaət bu sualın ən gözəl cavabı ola bilər: *"Hakimiyyət o vaxt böyük nemət olur ki, onu əldə edən adama təbiət tərbiyə və alicənablıq, qüvvətli ruh, geniş ürək, dərin ağıl, böyük təcrübə vermişdir".* Bunların hamısı isə Ulu Öndərdə cəmləşmişdi. Həmçinin dahi rəhbər həmişə verilən sözlə görülən işin vəhdətdə olmasına böyük önəm verirdi. Bu isə o deməkdir ki, əgər şəxsiyyət öz dediyini əməli ilə sübut edirsə, bu onun daxili dünyasının tələbatından irəli gəlir. Və bu tələbat böyük ideallara xidmət edirsə, onda bu ideal uğrunda mübarizə xalq tərəfindən müdafiə edilir, təqdir olunur. Görkəmli dövlət xadimi Heydər Əliyevi bütün fəaliyyəti boyu xalqımız məhz bu cür gördü.

Məqsədi bugünkü Azərbaycan olan Ulu Öndərin ölkəmiz üçün, onun gələcəyi naminə gördüyü ən böyük iş müstəqil dövlətimizin qorunub saxlanılması, inkişafı və dünya dövlətləri sırasına daxil olması, xalqın azadlığı uğrunda mübarizə dahi rəhbərin həyat amalı idi. Onun mübarizliyi, vətənsevərliyi, doğma xalqına, torpağına bağlılığı nəticəsində də biz bu gün müstəqil, gündən-günə güclənən, inkişaf edən, dünya birliyində layiqli yer tutan Azərbaycanda yaşayırıq və bundan qürur duyuruq. Sevinirik ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımız öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bu inkişafa isə muxtar respublikada dahi öndərin uzun illər üçün hesablanmış quruculuq siyasətinə böyük ehtiram və məhəbbət hesabına nail olunub.

**Muxtar MƏMMƏDOV**

# Ümummilli Liderin ideyaları işığında – müstəqil, suveren, qalib AZƏRBAYCAN



*(əvvəli 1-ci səhifədə)*

Ümumilikdə, Azərbaycan dünya iqtisadi sistemində öz layiqli yerini tutdu, beynəlxalq təşkilatlarda uğurla təmsil olundu, dünyada etibarlı tərəfdaş kimi tanındı, ikitərəfli və çoxtərəfli münasibətlərdə strateji tərəfdaş imici qazandı. Ulu Öndərin Azərbaycan xalqının gələcəyi naminə müstəqil dövlət quruculuğuna yol açan tarixi missiyalarından sayılan neft strategiyasının əhəmiyyəti bu gün regiondakı mürəkkəb geosiyasi vəziyyətin fonunda özünü daha bariz şəkildə göstərir. Ölkə başçısı cənab İlham Əliyev dəfələrlə çıxışlarında bu məqama xüsusi toxunub, müasir, qüdrətli Azərbaycan modelinin formalaşmasında Ulu Öndərin 30 il öncəki mütərəqqi addımını yüksək dəyərləndirib: ***"Heydər Əliyev neft strategiyası bu gün imkan verir ki, biz inkişaf edək, imkan verir ki, biz Qarabağı, Zəngəzuru yenidən quraq. 1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir. Bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür. Ölkəmizin geosiyasi önəmi böyük dərəcədə artıb".***

Ümummilli Lider tərəfindən müəyyənləşdirilmiş siyasi xəttin uğurla davam etdirilməsi artıq Azərbaycanı regionun nəinki siyasi, iqtisadi, həmçinin hərbi baxımdan güclü dövlətinə, əsl söz, iradə sahibinə çevirib. Elə bu gücün, siyasi iradənin nəticəsidir ki, Azərbaycan Ordusu, xalqı "dəmir yumruq" ətrafında sıx birləşərək 2020-ci ildə 44 gün ərzində mənfurları tamamilə darmadağın etdi, 30 il davam edən ədalətsizliyə son qoydu.

Ötən il sentyabr ayının 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin olundu. Beləliklə, əgər Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə ali hakimiyyətə qayıdışı ilə Azərbaycanı parçalanmaqdan, müstəqilliyini məhv olmaqdan qoruyub xilas etdisə, cənab İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü, suverenliyini tam bərpa edərək bu müstəqilliyin necə əbədi, sarsılmaz olduğunu dünyaya göstərdi.

Ulu Öndər ideyalarının işığında ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və milli maraqlara cavab verən xarici siyasəti nəticəsində Azərbaycan dünyanın bir sıra aparıcı ölkələri, o cümlədən Türkiyə, İtaliya, Rusiya, Çin, Pakistan və Özbəkistan ilə müxtəlif sahələr üzrə sıx əlaqələr qurub. Ölkəmizin 120 dövlətin təmsil olunduğu, BMT-dən sonra ikinci böyük siyasi təsisat sayılan Qoşulmama Hərəkatına 4 il sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda qüdrətinin əyani göstəricisidir. Dövlət başçısının təşəbbüsü ilə Türk Şurası və Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunan Zirvə görüşləri, eləcə də BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi, həmçinin Azərbaycanın Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM) və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməsi, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə səmərəli əməkdaşlıq yeni əsrimizin yeni liderinə beynəlxalq arenada olan böyük hörmətin, etimadın nəticəsidir. Yaxın günlərdə COP29 kimi mötəbər tədbirə ev sahibliyi missiyasını uğurla icra etməklə Azərbaycan qlobal iqlim dəyişikliyinin təsirlərinin azaldılması, sağlam, təmiz dünya naminə, eləcə də gələcəkdə "yaşıl enerji" istehsalı ilə Avropanın enerji təhlükəsizliyinə töhfə vermək əzmindədir. Regional təhlükəsizlik və əməkdaşlıq məsələlərində sonsuz etimadın nəticəsidir ki, MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilib. Bu addım, eyni zamanda Azərbaycanın tarixi zəfərinə və işğaldan azad olunan torpaqlara Böyük Qayıdış siyasətinə rəğbətin, dəstəyin ifadəsi kimi dəyərlidir.

Bu gün Ulu Öndərin siyasi varisi, 21-ci əsrin yenilməz liderinin rəhbərliyi altında qalib, müzəffər xalqın nümayəndələri olaraq Müstəqillik, Müstəqilliyin bərpası, Zəfər, Dövlət Suverenliyi günlərini təntənə ilə qeyd edirik. İşğaldan azad olunan bütün torpaqlarımızda müstəqilliyimizin rəmzi sayılan üçrəngli Dövlət Bayrağımız dalğalanır, soydaşlarımız öz doğma evlərinə qayıdır, tariximiz, mədəniyyətimiz, milli mənəvi dəyərlərimiz bərpa olunur. Dünyanın hansı ölkəsində, məmləkətində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının ürəyi müstəqil, qalib Azərbaycanla döyünür, həmvətənlərimiz öz sözlərini bütün xalqlar içərisində çəkinmədən, alnıaçıq şəkildə deyə bilirlər. Ən əsası isə odur ki, bu gün ölkəmizin apardığı müstəqil diplomatiyaya böyük hörmət və etimadla yanaşılır, siyasi iradəyə heç bir hegemon dövlət, heç bir qaragüruhçu qüvvə təsir göstərə bilmir. Ötən il Ümummilli Liderimizin anadan olmasının 100 illik yubileyi ilə bağlı zəfərimizin rəmzi sayılan Şuşadan xalqa müraciətində qalib Azərbaycanın müzəffər Liderinin də dediyi kimi: ***"Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda güclü imkanlarımız var".***

# Böyük Qayıdış siyasətinə rəğbətin ifadəsi – MDB-nin mədəniyyət paytaxtı LAÇIN

Azərbaycan tarixi zəfərdən sonra regionun geosiyasi mənzərəsini tamamilə öz xeyrinə dəyişməklə həm də mövcud əməkdaşlıq əlaqələrini də yeni inkişaf müstəvisinə daşıya bilib. Bu kontekstdə ölkəmizin 70 il eyni ittifaqda birləşdiyi və 1991-ci ildə yaradılan Müstəqil Dövlətlər Birliyi (MDB) üzvləri ilə həm vahid platforma olaraq irəli sürdüyü ideyaları, həm də eyni zamanda ayrı-ayrılıqda regional hadisələrə yön verəcək faydalı münasibətləri xüsusi vurğu gərəkdirir. İstər Rusiya Federasiyası və Özbəkistanla imzalanan müttəfiqliyə dair bəyannamə, müqavilə, istərsə də Ermənistan istisna olmaqla digər bütün üzv ölkələrlə müxtəlif, xüsusən iqtisadiyyat, ticarət, mədəniyyət, humanitar, elm və digər sahələrdə uğurlu əməkdaşlıqlar Azərbaycanın qazandığı siyasi xarizmaya, uğurlu diplomatiyaya olan sarsılmaz etimaddan, hörmətdən irəli gəlir. MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi isə tarixi zəfərə, Böyük Qayıdışa rəğbətin ifadəsi kimi təqdirəlayiqdir.

Azərbaycanın dilbər guşəsi, mühüm hərbi-strateji, nəqliyyat-logistika əhəmiyyətinə malik, ecazkar turizm potensialı olan Laçının bu məxsusi statusa layiq görülməsi prosesi, təbii ki, təsadüfi deyil. Bu mütərəqqi addımın dərin siyasi-ictimai əhəmiyyəti vardır. Özündə sivilizasiya, mədəniyyət anlamını əxz edən bu qərar həm də 30 ildir, əzəli torpaqlarımızı çapıb-talayan, mədəni sərvətlərimizi tarmar edən vandalizm aktına qarşı tutarlı cavabdır. Bəli, özündə müxtəlif sivilizasiyaları yaşadan rayon ərazisi 300-ə yaxın tarixi, mədəniyyət və memarlıq abidələri ilə zəngindir. Təəssüf ki, işğal zamanı 12 muzey və 6 rəsm qalereyası, tarixi əhəmiyyətli 9 saray ermənilər tərəfindən qarət olunub, minlərlə eksponat məhv edilib. Məbədlər və məscidlərdən işğalçılar çirkin məqsədlər üçün istifadə ediblər. Onlarla kitabxana və minlərlə kitabı yandırmaqla tarixi yaddaşımızı, keçmişimizi silməyə çalışıblar. Ancaq buna tam şəkildə müvəffəq ola bilməyiblər. Prezident cənab İlham Əliyevin siyasi iradəsi, müzəffər Ordumuzun hərbi qətiyyəti sayəsində bütün mənfur əməllərin qarşısı alınıb.

Bu gün Laçına soydaşlarımızla yanaşı, mədəniyyət, tarixi ənənə, milli dəyərlər də qaytarılır, yaşı yüz illərlə ölçülən abidələr restavrasiya edilir, rayonda mədəni-kütləvi tədbirlər, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirilir. Və bu mənada, qədim şəhərimizin MDB-nin 2025-ci il üçün mədəniyyət paytaxtı elan olunması həm də Azərbaycanın Böyük Qayıdış siyasətinə dəstək, quruculuq işlərinə stimul təsiri bağışlayır. Oktyabrın 8-də Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında iştirak edən ölkə başçısı İlham Əliyev də bu böyük təşəbbüsə, tarixi qərara məhz reallaşdırılan quruculuq-bərpa siyasəti nöqteyi-nəzərindən də yanaşdı: ***"Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb".***



Nəzərə alsaq ki, gələn il Azərbaycanın 10-dan çox şəhərində III MDB Oyunları keçiriləcək o zaman Laçının belə bir yüksək statusa malik olmasının ölkəmiz üçün əhəmiyyəti özünü daha qabarıq şəkildə göstərir. Həmçinin COP29-a sayılı günlər qalarkən bu addımın atılması son dövrlərdə Qərb ölkələrinin, ABŞ-nin antiazərbaycan siyasətinə, Qafqaza təsir etmək niyyətinə, regiona uzanan qaragüruhçu əllərə qarşı antisiyasi zərbə məqsədi də daşıya bilər. Eyni zamanda məlumdur ki, 2025-ci ildə MDB-yə üzv dövlətlər üçün daha bir mühüm hadisənin – faşizm üzərində qələbənin 80 illiyi qeyd olunacaq. Ölkə Prezidentinin də qeyd etdiyi kimi, ümumi qələbəyə Azərbaycan sanballı töhfə verib. Həmin dövrdə 3 milyon 400 min əhalisi olan Azərbaycandan cəbhəyə 700 minə yaxın insanın yollanması və 130 azərbaycanlının Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi, "Taqanroq" adı ilə tanınan 416-cı Azərbaycan atıcı diviziyasının döyüşçülərinin Şimali Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçməsi xalqlar içərisində əsl qəhrəmanlıq göstəricisidirsə, neftçilərimiz tərəfindən cəbhə üçün neft və neft məhsullarının 80, hərbi texnika üçün yağların 96 faizinin tədarük edilməsi isə həmrəylik təcəssümüdür. Məhz bu baxımdan 2025-ci ildə Azərbaycanda MDB səviyyəsində kütləvi idman tədbirlərinin keçirilməsi və xüsusilə də Laçın şəhərinin mədəniyyət paytaxtı statusu qazanmasını ölkəmizin İkinci Dünya müharibəsinin taleyinə təsir edən mühüm töhfələri qarşılığında keçmiş ittifaq dövlətlərinin yubiley hədiyyəsi kimi də dəyərləndirmək olar.

Otuz il düşmən tapdağında qalan, coğrafi, strateji ərazi baxımından müharibənin qazanılmasında, digər torpaqlarımızın mənfurlardan təmizlənməsində həlledici rola malik Laçının azadlığı ölkə Prezidentinin qətiyyətli hərbi-siyasi iradəsinin parlaq ifadəsi olaraq müasir dövrümüzün şanlı səhifələrindən biridir. Ali Baş Komandanın da dediyi kimi, Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Əminliklə demək olar ki, erməni faşizminə gözdağı olan, günü-gündən gözəlləşən qəhrəman şəhərimiz alman faşizmi üzərində qələbənin 80 illiyində MDB-nin mədəniyyət paytaxtı statusunu da uğurla daşıyacaq və bu mühüm missiya da tarixə yazılacaq.

**Səhifəni hazırladı: Nail ƏSGƏROV**

# Zəfər yolunun Füzuli qələbəsi



1993-cü ilin isti bir yay səhərində kəndlərini, evlərini, ocaqlarını güllə yağışı altında tərk etmişdilər onlar. Sabirabad rayonundakı yataqxana binalarında özünə yer tapan ailələr də var idi, həyətlərdə qurulan çadırlarda yayda istidən, qışda odun sobasının istisindən çox tüstüsünə boğulanlar da. Kimi oğlunu, kimisi həyat yoldaşını, kimi qardaşını Füzuli uğrunda gedən döyüşlərdə şəhid vermişdi. Kimisi iki gün əvvəl vəfat etmiş anasının məzarını torpağı qurumamış yiyəsiz qoyub oranı tərk etmək məcburiyyətində qalmışdı. Kimisi isə evinin qapısını bərk-bərk bağlayıb, açarları qoynunda gizlədib çıxmışdı evindən bir gün qayıtmaq ümidi ilə. Çoxlarının isə ümidi bir ovuc torpaq olmuşdu. Evinin həyətindən götürdüyü bir ovuc torpağı kəlağayısının bir ucuna bağlayıb saxlamışdı. Bəlkə, ömrümüz yetməz, yurdumuza döndüyümüz günləri görmərik, heç olmazsa, məzarımıza bir ovuc Füzuli torpağı atılsın deyə. Onlar bir igidin ömrü qədər dözdülər torpaq həsrətinə, amma heç vaxt ümidlərini itirmədilər. Çadırların yanına yeni çadır qurub toy etdilər, Vətən müdafiəsinə oğullar böyütdülər, həsrət çəkdilər, yurd dərdi çəkdilər, amma sınmadılar. Bir vaxt gəldi, müxtəlif rayonlarda yataqxana binalarında, çadırlarda məskunlaşan füzulililəri həmin yerlərdən Haramı düzündə salınan qəsəbələrə köçürdülər. Həmin tarix o insanların həyatının ən çətin günlərindən biri, bəlkə də, ümidlərin gerçəyə çevriləcəyi günlərin başlanğıcı idi.

Evlərin qarşısında dayanan yük maşınlarını heç kim boşaltmaq istəmirdi. Bu o demək deyildi ki, burada yaradılan şərait pis idi, əsla. Həyət, ev, Arazdan həyətlərə çəkilən su xətləri, sosial obyektlər, hər bir şərait var idi bu qəsəbələrdə. Amma onlar çox yorulmuşdu qaçqın həyatı yaşamaqdan. Artıq evlərinə dönmək istəyirdilər, səbir kasası dolmuşdu hər kəsin. Yenə də dözdülər, dövlətinə, Ali Baş Komandanına, ordusuna inanıb yaşamağa davam etdilər. Həmin illərdə o qəsəbələrdə bir ağac belə olmasa da, insanlar yeni tinglər, toxumlar əkdilər torpağa. Susuz, ilan mələyən Haramı düzü yaşıllıqlara büründü. Torpağa atılan toxumlar insanların ümidləri kimi boy atdı.

Hər yaz gələndə, bayram olanda səngərin o tayındakı Seyidəhmədli kəndindəki məzarlığa baxıb: “Kaş o gün olaydı ki, torpaqlarımız azad edilərdi, bircə dəfə gedib ana-atamın, şəhidlərin məzarını ziyarət edərdim, evimizdə bayram tonqalı qalayardım”, – deyən insanların arzuları çin oldu. Hər gecə güllə səsinə yatıb, top səsinə oyanan insanların xəyallarını igid ərənlər gerçəyə çevirdilər. Düşmənin ən dərin, keçilməz səddi məhz Füzuli rayonu ərazisində yarıldı. İllərdir, ürəyində Qarabağ yanğısı daşıyan Azərbaycan əsgəri bağlı qapıları açdı, sönən çırağı alovlandırıb, al-qanla boyanan müqəddəs Azərbaycan Bayrağını dahi Füzulinin adını daşıyan şəhərin ən yüksək yerinə sancdı. Həmin gün bu xalq təkcə bir ovuc torpağına yox, həm də milli sərvətinə, ədəbiyyatına, tarixinə qovuşdu. Həmin gün mücrülərdə qalmaqdan pas tutan açarlar bağlı qapıları açmağa tələsdi. Vaxtilə kəlağayıların uclarına düyünlənmiş bir ovuc torpaq qızıla dönüb öz yerinə qayıtdı. Füzulinin işğaldan azad olunması xalqımızın və ordumuzun tarixinə yeni zəfər səhifəsi kimi daxil oldu. Qələbədən cəmi bir ay sonra Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev üçrəngli bayrağımızı Füzuli şəhərinin mərkəzində qaldırdı. Füzuli özünün sülh, əmin-amanlıq və abadlıq dönəminə qədəm qoydu. Prezident cənab İlham Əliyev tərəfindən Füzuli şəhəri ilə Şuşa şəhərini birləşdirən “Zəfər yolu”nun təməli qoyuldu. Sonra isə Füzuli şəhərinin Baş planı təsdiq olundu. İyirmi yeddi il ərzində mənfur düşmən tərəfindən həyatın bütün nişanələri silinmiş və viran edilmiş Füzuli şəhərinə qısa bir zamanda yeni həyatın gətirilməsi üçün zəruri olan infrastruktur obyektlərinin tikintisinə başlandı. Füzuli-Şuşa, Füzuli-Ağdam, Füzuli-Hadrut istiqamətlərində avtomobil yollarının tikintisi, bütövlükdə Qarabağ bölgəsinin abadlaşdırılması və yenidən qurulması kimi nəhəng layihənin ilk mərhələsi oldu. “Qarabağın hava qapısı” adlandırılan Füzuli Beynəlxalq Hava Limanının tikintisi cəmi səkkiz ay ərzində başa çatdırıldı və istifadəyə verildi. Bu gün Füzuli böyük tikinti meydanını xatırladır. Bütün bunlar həyatımızda baş verən tarixi hadisələrdir. İllər keçəcək, nəsillər dəyişəcək, lakin Füzuli itkisi ilə yaşanan kədər hissləri ilə bərabər Füzulinin azad olunması və həyata qaytarılması ilə yaşanan sevinc və qürur hissləri də heç vaxt unudulmayacaq.

Şanlı Vətən savaşının 20-ci günü işğaldan azad edilən Füzuli şəhəri qələbənin şanlı xəbərlərinin davamı kimi yad olunacaq. “Qarabağın hava qapısı”na, Füzuli Beynəlxalq Hava Limanına enən təyyarədən “Qarabağa xoş gəlmisiniz!” sədasını eşidəndə bu torpaqları bizə qaytaran oğullar minnətdarlıq hissi ilə xatırlanacaq.

Şuşaya gedən yol, “Zəfər yolu” keçir indi Füzulidən. Düşmənin xarabaya döndərdiyi kəndləri buraya gələnlər görə-görə keçir bu yoldan. Bir də bu xarabalıqların başı üstə doğan Günəşə baxır. Bir azdan Füzuli şəhəri öz müasir görünüşü ilə qarşılayır insanları. Uca binaların eyvanlarından asılan üçrəngli, ay-ulduzlu bayrağımız görünür. Məktəbə tələsən uşaqların səsi eşidilir. Sonra isə füzulili olub Füzulisiz doğulan gənc tarix müəllimini dərsə, memarı isə şəhərdə yeni-yeni binalar inşa etmək üçün tikintiyə tələsən görürük. Biri gələcəyimiz olan uşaqlara şanlı tariximizi öyrətməyə, digəri isə düşmənin xarabaya döndərdiyi yurdunu cənnətə çevirməyə can atır.

✍ **Ramiyə ƏKBƏROVA**



# Zəngilanda ucalan vüqarımız

Təxminən, 20 il öncə Araz çayı boyunca dolambac yollarla irəliləyirdi avtobus. Çayın o tayından dağıdılmış, viran edilmiş evlər dəyirdi gözə. Bu evlər o evlər idi ki, bir zamanlar zəngilanlılara doğma ocaq, isti qucaq olmuşdu. Baxdıqca ürəkdağlayan mənzərədən boylanan o evlər kədər, iztirab, tənhalıq hayqırışlarıyla “Bizi qurtarın bu zülmdən”, – deyirdilər sanki. Dili olsa, yalvarar, gözü olsa, qan ağlayardı, bəlkə də, o daşlar, o divarlar... Arazın həzin laylasını dinləyərək onun qoynuna sığınan bu evlər elə Araz qədər dərdli idi. Bu, hicran dərdi idi. Vətənindən qoparılan yurdun Vətən həsrəti dərdi...

1993-cü ilin qara oktyabrı... Zəngilanlıların mənəvi sıxıntılarının başladığı günlər... Həmin vaxtlar rayon mühasirəyə düşsə də, vətənsevərlik sanki bütün zəngilanlıları əsgərə çevirmişdi; əli silah tutanların hamısı öz doğma yurd-yuvasını igidcəsinə müdafiəyə qalxmışdı. Yağı düşmənin ordu hissələrinə qarşı Zəngilan tək döyüşürdü. Əlverişli yüksəkliklər uğrunda gərgin vəziyyət yaranmışdı. Mərmi, güllə səsləri gecəli-gündüzlü Zəngilanın aydın səmasına qara buludlar gətirirdi. Döyüşlər səngimirdi. Gərgin günlər yaşanırdı. Rayonda yaradılmış özünümüdafiə dəstələrinin fədakarlığı ilə zəngilanlılar düşmənin hücumlarını dəf etsə də, böyük strateji əhəmiyyətə malik olan yüksəkliklər ermənilərin əlində cəmləşmişdi. O vaxt baş verən bu hadisə “Şayıflı faciəsi” kimi tarixin qara səhifəsinə yazıldı. Həmişə Zəngilana “yağlı tikə” kimi baxan ermənilərin arzusu 1993-cü ilin 30 oktyabrında gerçəkləşdi. Yağı düşmən Zəngilanda ikinci bir Xocalı faciəsi törədəcəkdi ki, zəngilanlılar amansız erməni hücumlarına qarşı köməksiz qaldıqlarından Araz çayından Cənubi Azərbaycana keçməyə məcbur oldular. Bu zaman lal axan Arazın sularına əbədi qərq oldu bir çox soydaşımız. Min bir zəhmətlə daşı-daş üstə qoyub özünə isti ocaq quran insanlar doğma ev-eşiyini, yurd-yuvasını atıb getməyə məcbur oldular. Ancaq bütün bu çəkdikləri acılar yandırılan evlərinin tüstüsünün ərşə dirənməsini izlədikləri qədər ağır gəlməmişdi zəngilanlılara. Yurdundan didərgin düşmüş neçə-neçə qaçqın, köçkün bu həsrətə dözə bilmədi. Ağır dərd onların qəddini əydi, yurd həsrəti ürəklərini yandırdı. Yuvasından didərgin düşənlər həsrət tonqalının alovunda qovrulurdular. İllər ötdükcə Vətən həsrətilə yansalar da, zəngilanlıların tükənmədi səbri, qırılmadı ümidi. Nə vaxtsa, bir gün vüsala çatacaqlarına şübhə etmədilər, dövlətimizin qüdrətinə, ordumuzun gücünə inandılar, arxalandılar.

Və yenə oktyabr gəldi. Yox, bu dəfə Zəngilana qara qış gətirmək üçün deyil, al-əlvan çiçəkli yazı yaşatmaq üçün... Bu dəfə gəlişiylə yurdumuza Zəngilanın zəfər sevincini gətirdi 2020-ci ilin 20 oktyabrı... Qalib sərkərdə, Müzəffər Ali Baş Komandanın xalqa bəyan etdiyi ***“Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində azad edilən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri!..”*** qələbə müjdəsi qəlbi yurd sevgisiylə döyünən zəngilanlıların hər daşına, hər qayasına, kəhrizinə, bulağına, yaylağına, oylağına getmək üçün bir quştək qanad çalıb, ruh cana qayıdantəki Zəngilana dönmək istəyini daha da alovlandırdı.

Birinci Qarabağ müharibəsinin açdığı yaraya İkinci Qarabağ müharibəsində qazandığımız qələbə məlhəm oldu. Ali Baş Komandanın bu müjdəsi 30 il hicran alovunda alışıb-yanan zəngilanlıların tükənməyən ümidlərini parlaq şəfəqlə saçan nurlu üfüqə çevirdi.

İndi işğaldan azad edilmiş digər rayon və şəhərlərdə olduğu kimi, Zəngilanda da yeni həyat başlayıb. 30 il ərzində erməni barbarlarının dağıdıb viranəyə çevirdiyi yurd yerlərimiz başdan-başa tikinti-quruculuq meydanına çevrilib. Dörd il əvvələ qədər bir həyat nişanəsi belə tapmaq mümkün olmayan ərazilərimizdə həyat yenidən məcrasına qayıdır. Azad edilən yurd yerlərimiz gündən-günə dirçəldilir, müasir infrastruktur qurulur, “ağıllı kənd”, “ağıllı şəhər”lər salınır. Artıq Qarabağ və Şərqi Zəngəzur nəhəng tunellərin çəkildiyi, dünya miqyaslı dəhlizlərin salındığı, beynəlxalq hava limanlarının tikildiyi, meqalayihələrin gerçəkləşdirildiyi unikal məkana çevrilir. İşğaldan azad edilən tarixi torpaqlarımızda görülən bütün bu irimiqyaslı işlər birbaşa Prezident cənab İlham Əliyevin diqqəti və nəzarəti altında həyata keçirilir.

Bu gün xalq olaraq hər birimiz xoşbəxtik, qürurluyuq, alnıaçıq, başıucayıq. Çünki artıq soydaşlarımız doğma ocaq həsrəti, yurd nisgili ilə deyil, xoşbəxt sabahlara açılan pöhrələnmiş sevinclərlə yaşayır. Artıq al-əlvan Süsən dağları, səfalı Şükrətaz yaylağı, Çinarlı meşəsi, Bəsitçay, Oxçuçay düşmən əsarətindən qurtulub. Erməni xislətindən daşı-daş üstündə qalmayan Zəngilanın qədim yurd yerlərində indi həyat yenidən canlanır. Artıq dörd ildir ki, müzəffər Ordumuzun rəşadəti, şəhid və qazilərimizin qəhrəmanlıqları sayəsində üçrəngli bayrağımızın Zəngilanda yenidən dalğalandığı xoş sabahlara addımlayırıq. Övladlarının bəxtəvər gününü görüb bəxtiyar olan ana yurdum Azərbaycan! Sən artıq bütövsən, əbədisən, əzəlisən! Sən xoşbəxt övladlarının qoynuna sığındığı qibləgahsan, səcdəgahsan! Sən müqəddəs Vətənsən! Duaların qəbul oldu, anam Azərbaycan! Allah səni hifz etdi. İllər sonra qovuşduğun hər parçanla dünya durduqca var ol, azad, müstəqil, məsud, şanlı Azərbaycan!

✍ **Gülcamal TAHİROVA**



## Kənd təsərrüfatı naziri Naxçıvana səfərə gəlib



Oktyabrın 18-də Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov Naxçıvana səfərə gəlib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, nazir Məcnun Məmmədov və nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucaldılan abidəsini ziyarət edib, önünə tər güllər qoyub, xatirəsini ehtiramla yad ediblər.

# Ali Məclis sədrinin birinci müavini və Aparatın əməkdaşları sərgi-satış yarmarkasında olub





Oktyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov, Ali Məclis sədrinin müavini Arzu Abdullayev və Aparat əməkdaşları Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında muxtariyyətin 100 illiyi ilə əlaqədar təşkil olunan məhdud fiziki imkanlı və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış yarmarkasında oldular.



Məlumat verilib ki, sərgidə, ümumilikdə, 447 müəllifin 10 min 929 adda əl işi təqdim edilir. Bu da ötən illə müqayisədə 16 müəllif, 142 əl işi çox deməkdir.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclası keçiriləcək

Oktyabrın 21-də VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclası keçiriləcək.

Payız sessiyasının iclasında "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi (birinci oxunuş) və "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi nəzərdə tutulur.

## Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib





Oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

İclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi və "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi daxil edilib.

İclasda qanun layihələri haqqında Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov məlumat verib.

Sonda qanun layihələri Ali Məclisin plenar iclasında müzakirə üçün tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı ilə tədbirlər olub



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvanda növbəti humanitar tibbi aksiya keçirilib.



Nazirliyin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, aksiya çərçivəsində qonaqlar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub.

Həmin gün Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Samiq Sadıxovla "Regional İnkişaf" İctimai Birliyinin nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə Samiq Sadıxov son dövrlərdə muxtar respublikada səhiyyə sahəsində həyata keçirilən islahatlardan və icrası nəzərdə tutulan layihələrdən bəhs edib.

Naxçıvanda yeni yaradılan Təcili Tibbi Yardım Xidmətinin fəaliyyəti haqqında məlumat verən nazir bildirib ki, muxtar respublika üzrə fəaliyyət göstərən təcili tibbi yardım avtomobilləri GPS sistemi ilə təchiz edilib, təcili yardım xidmətinin tam elektronlaşdırılması aparılıb.

Görüş zamanı ötən il təşkil edilən "Diabet mənim dostumdur" adlı layihədən hazırlanmış videoçarxın təqdimatı olub.

Qeyd edək ki, iki gün davam edən aksiyada müxtəlif sahələr üzrə peşəkar həkimlər tərəfindən müayinələr aparılıb.

Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən "Səhiyyədə innovativ yanaşmalar" adlı konfrans Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Samiq Sadıxov Heydər Əliyev Fondunun rəhbəri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya səhiyyənin inkişafına göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib və gələcək əməkdaşlığın davam edəcəyini vurğulayıb.

Birliyin əməkdaşı Babək Tatlıyev səhiyyə sahəsində görülən işlərdən və konfransın həkimlərin bilik və bacarıqlarının artırılmasında əhəmiyyətindən bəhs edib.

Mərhəmətli Ürək Assosiasiyasının rəhbəri Nuranə Əliyeva, "Məlhəm" Beynəlxalq Hospitalının direktor müavini Ceyla Əhmədxanova, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş onkoloqu Azad Kərimli Naxçıvanda səhiyyə sahəsində aparılan islahatların bölgənin səhiyyə infrastrukturuna müsbət təsiri barədə danışıb, regionlarda keçirilən səhiyyə aksiyalarının önəmini vurğulayıblar.

Konfransın elmi hissəsində həkimlər xəstəliklərin müalicəsi və yeni metodlarla bağlı fikir mübadiləsi aparıblar.

## "Caspian Energy Club" Latviya, Estoniya və Finlandiya şirkətləri üçün Naxçıvana səfər təşkil edib





"Caspian Energy Club" "LEF Network Azerbaijan" layihəsi çərçivəsində Latviya, Estoniya və Finlandiya şirkətləri üçün Naxçıvan Muxtar Respublikasına "Business Tour" təşkil edib.

"Business Tour" çərçivəsində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti, Naxçıvan Dövlət Universiteti və "Caspian Energy Club"ın birgə təşkilatçılığı ilə "International B2G Forum" baş tutub.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəis müavini Tural Murtuzəliyev, Naxçıvan Dövlət Universitetinin rektorunun müşaviri Rəcəb Cəfərli, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasına daxil olan sahibkarlar və bir sıra ekspertlərin çıxışı ilə keçən "International B2G Forum"da iştirakçılara Naxçıvanın investisiya potensialı, "yaşıl enerji", dayanıqlı inkişaf, Naxçıvanda istehsal olunan məhsullar və yeni layihələr və sair aktual mövzular haqqında ətraflı məlumat verilib.

"Əvvəlki "Business Tour"da biz məhsulların ixracı və idxalı mövzularını müzakirə etdik, lakin bu missiyada diqqətimizi daha çox "yaşıl texnologiya"ların tətbiqinə və onların davamlı inkişafına yönəltdik. "Yaşıl texnologiya"larla bağlı innovativ həllərin araşdırılması və tətbiqi, şirkətlərin bazar rəqabətində üstünlük qazanmasına imkan yaradır. Bu yolda irəliləmək üçün iştirakçılar arasında əməkdaşlığın artırılması və şəbəkələşmənin gücləndirilməsi zəruridir", – deyə "Caspian Energy Club"ın baş icraçı direktorunun birinci müavini və baş maliyyə direktoru Rasim Mahmudov bildirib.

Davam edən "Business Tour" çərçivəsində Naxçıvanda yerləşən günəş enerjisi panelləri və digər müasir istehsal prosesləri ilə tanışlıq məqsədilə yerli müəssisələr ziyarət olunub.



# Ədəbiyyatımız xalqımızın milli sərvətidir



# Bəyaz mərmərdən boylanan Şərqin Şekspri





Naxçıvan şəhərinin simvoluna çevrilən tikililərin biri də romantizm ədəbi-bədii cərəyanının danılmaz simalarından biri olan dahi Hüseyn Cavidin məzarı üzərində inşa olunmuş sərdabətipli məqbərədir. Hər gün yüzlərlə insan bu məqbərənin yanından gah tələsik şəkildə işə, gah da sakitcə dərsə doğru yol alır. Məqbərənin ətrafında salınmış kiçik park bəzən kitabsevərlərin öz hissləri ilə iç-içə olduğu nağıllar aləminə, bəzən isə dostlarınız və ailə üzvləriniz ilə yeni xatirələri bir araya topladığınız kiçik bir kitaba çevrilir. Şərqin Şeksprinin "İblis" əsərində bəhs etdiyi oddan-alovdan yaranmış aləmlər sanki dahi sənətkarın bəyaz məzarının simasında sönmüş və sükuta qərq olmuşdur. Bəlkə də sənətkar yazdığı əsərlərdən ibrət almayaraq müharibələr içində olan bu dünyadan bezmişdi. Nə bilmək olar... Bu səssizlik özündə nələri gizlədir görəsən? Repressiya dövründə müdafiə etdiyi fikirləri, Bakıda həbsdə olarkən yaşadığı nisgili, yoxsa özü ilə birlikdə Vətənindən uzaqlaşacaq sənət dostlarını? Bu bəyaz məqbərə sanki öz simasında neçə illərdir, Vətənə həsrət qalan bir sənətkarın kədərini təcəssüm etdirir... Bəlkə də, Cavid əfəndinin cansız vücudunun yatıb-uyuduğu yer bir vaxt onun məşhur əsərlərini düşünüb əli çənəsində fikrə getdiyi məkanlar idi... Elə məqbərənin arxa hissəsində də şairin həyatının bir hissəsinin keçdiyi ev-muzeyi yerləşir. Bəlkə də "Ana" dramındakı Qanpoladın ölümü, Səlma ananın oğlunun qatilini bağışlaması və başqa əsərlərin sirli gedişatı bu məqbərənin ətrafındakı sükutda gizlənir. Xudmani və xatirələrlə dolu bir ev...

"Şeyda", "Xəyyam", "Topal Teymur" və daha nələr-nələr... Sibirin ucsuz-bucaqsız ərazisində yaşamağa məcbur edilmiş Hüseyn Cavidin məzarının 59 nömrəli taxtadan düzəldilmiş baş daşını Naxçıvan şəhərinin bəyaz və ehtişamlı məqbərəsinə çevirən o tarixi gedişat nə idi görəsən?.. Tarix 1956-cı ili göstərir... Dahi şair və dramaturq Cavid əfəndi Azərbaycan SSRİ Ali Məhkəməsinin hökmü ilə bəraət alır, lakin həmin vaxtlar soyuq Sibirdə şairin nəşinin tapılması müşkül məsələyə çevrilir... Ulu Öndər Heydər Əliyevin böyük səyləri nəticəsində Moskvada aparılan müzakirələr və razılaşmalardan sonra 1982-ci ildə Hüseyn Cavidin nəşinin axtarılıb tapılması işi Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərova tapşırılır... Həmin illərdən danışarkən Həmid Cəfərov deyirdi: "Qərarın icrası məsuliyyətli və çətin olsa da, məhz onun arxasında Heydər Əliyevin adı durduğu üçün heç bir müşküllükdən söhbət gedə bilməzdi. Əksinə, Ulu Öndərimizin adı, şərəfli bir işə dəstək durması Cavidin mənəvi övladları olaraq bizə qol-qanad verirdi. Çünki bu qərarın icra olunmasına bilavasitə Heydər Əliyevin özü rəhbərlik edirdi".

Sibirə səfər etməmişdən qabaq Hüseyn Cavidin İrkutsk vilayətinin Tayşet rayonunda yerləşən ahıllar xəstəxanasında dünyasını dəyişməsi, daha sonra isə Şevçenko kəndindəki məzarlıqda dəfn olunduğu aşkar edilir... Sibirə səfərə yollananlar arasında muxtar respublikanın daxili işlər nazirinin sabiq müavini, polkovnik Telman Əliyev və o zaman SSRİ-nin ən cavan deputatı olan Zakir Nəsirov da var idi...

Soyuq Sibirin donmuş torpaqlarında romantizm atəşi ilə yanan bir ədibin, bəlkə də, tək istəyi doğma torpağı Azərbaycanda, daha da dəqiq desək, Naxçıvan torpağında dəfn olunmaq idi...

Həmin ahıllar xəstəxanasının dağıdılması, Şevçenko kəndinin itib-batması yaranan ümidləri get-gedə sarsıdırdı... Lakin 30 dərəcə şaxta altında öz iradəsindən dönməyən heyət, nəhayət, dahi dramaturqun 59 nömrəli məzarını tapırlar... Plana görə Hüseyn Cavidin nəşi Şevçenko-Tayşet-İrkutsk-Moskva-İrəvan-Naxçıvan marşrutu ilə doğma torpağına gətiriləcəkdi... Lakin Ulu Öndər Heydər Əliyevin qəti əmri ilə Hüseyn Cavidin nəşi Moskvadan birbaşa Bakıya gətirilməli idi. Qərar ciddi idi, Bakıdan gedən sənətkar Bakıya da gətirilməli idi... Nəhayət, təqvim 26 oktyabr 1982-ci ili göstərir... Dahi şair Moskvadan birbaşa Bakı şəhərinə, oradan isə doğulduğu Naxçıvana gətirilir...

İlk vaxtlar Hüseyn Cavidin məzarı üzərində bəyaz rəngdə olan, şəhərin simvoluna çevrilən bu məqbərəni görmək mümkün deyildi... Məzar tənha bir şəkildə yaşadığı evin qarşısında dayanırdı... 1996-cı ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və memar Rasim Əliyevin verdiyi layihə əsasında məzarın ətrafında yerləşən tikililər sökülmüş və məqbərənin inşasına başlanmışdır...

Məqbərənin xaricindən baxıldıqda açıq-aşkar sarı və qırmızı rəngli ulduz ornamentləri işləndiyini görürük... İçəriyə daxil olduğumuz zaman ornamentlərdən düşən Günəş şüaları məqbərənin gözəlliyinə başqa bir gözəllik qatır...

Məqbərənin içərisində məzarları göstərən böyük şüşə pəncərənin tuşu ilə isə heykəltaraş Ömər Eldarovun imzasını özündə birləşdirən Hüseyn Cavidin büstü yerləşir... Sanki büstün simasında bədbəxtlik və xoşbəxliyi özündə birləşdirən cizgilər əks olunub...

Məqbərənin arxa hissəsinə baxdıqda isə məzarlara enən ikinci bir qapını, qapının üzərində isə memar Rasim Əliyevin və heykəltaraş Ömər Eldarovun adlarının əks olunduğunu görürük.

Kim deyə bilərdi ki məqbərə Hüseyn Cavidlə birlikdə həyat yoldaşı Müşkünaz xanımın məzarını Bakıdan, oğlu Ərtoğrolun məzarını isə Naxçıvan şəhərinin başqa bölgəsindən və daha sonra qızı Turan xanımın da cansız vücudunu böyük pəncərədən göstərəcək... Həyat, həqiqətən də, qəribədir...

Gün ərzində yanından ötüb keçdiyimiz bu məqbərənin nə qəribə taleyi var imiş. Quruca mərmərin taleyi çətin ki, olsun... Lakin o bəyaz mərmərə həmin nisgili və ehtişamı qatan məhz həmin bəyaz mərmərdən Naxçıvan şəhərinə boylanan Şərqin Şekspiri Hüseyn Caviddir...

**Rafiq TƏHMƏZOV**

# Ölüm-yüksəliş

*(Məmməd Araza)*



**Ölə-ölə yazmıram,**
**Yaza-yaza ölürəm.**

***Məmməd Araz***

Yaza-yaza ölən şair,
Bu ölümün yüksəlişdir,
Əbədiyyət dünyamıza
Peyğəmbər tək bir gəlişdir.
Yaza-yaza ölən şair,
Bu dünyanın dərd-sərini
Öz dərdi tək bölən şair,
Yaza-yaza sən ölməsən,
Şeirimiz də yetim qalar,
Araz adlı qəm karvanı yolun azar.
Həsrət adlı qəm yükünü
Kim daşıyar misralarda?
Kim qoruyar şeirimizi
Bu dünyada dolaylarda.
Yaza-yaza ölən şair,
Sən olmasan,
Yaza-yaza sən ölməsən,
Arazımız tənha qalar,
Dərd əlindən öz içində o boğular.
Axı Araz bu millətin
Həsrət adlı göz yaşıdır.
Savalansa bu millətin
Gülüstanda, Türkmənçayda
Dəfn olunmuş ümidinin baş daşıdır.
Yaza-yaza ölən şair,
Sən olmasan, kim oyadar,
Yatmışları, batmışları,
Qeyrətini satmışları.
Xırdalığa xırdalanmış insanları,
Kim dirildər ruhu ölü,
Adı diri o canları?
Şair, dədəm, sən olmasan,
Yaza-yaza sən ölməsən,
Bəs kim silər
Oğlu şəhid anaların göz yaşını?
Bəs kim öpər
Xətainin qeyrət adlı baş daşını?
Yaza-yaza ölən şair,
Bu ölümün yüksəlişdir,
Əbədiyyət dünyamıza
Peyğəmbər tək bir gəlişdir.

**Faiq SƏFƏROV**

# Bir payız günündə...











Bir payız günü idi, qalxdıq Gəmiqayaya,
Tala-tala buludlar qara-qara gəzirdi.
Günəş hərdən boylanıb nur səpirdi səmaya,
Daşlar ayağımızı incidirdi, əzirdi.

Nuh babam bu yerlərdə yurd salıb – Nəbi yurdu,
Nəfəsini duyurdum ən qədim insanların.
Şair könlüm uçaraq zirvədə yuva qurdu,
Hər qarışda izi var tarixi zamanların!

Dumana bürünmüşdü Qapıcığın zirvəsi,
Qız-gəlin çuxurunda yetim idi bulaqlar.
Qaranquş yaylağında eşitmədik quş səsi,
Bu yerdən daha yaxın görünürdü uzaqlar.

Gəmiqaya tarixdir – tarixin tarixidir,
Burada səpələnib dörd yana qara daşlar.
Hər daş keçmiş qoxuyur, hər qaya tarixidir,
Oxusaq, çox sirlərə eyləyər çara daşlar.

Heyrətlə seyr edirəm bu möhtəşəm yerləri,
Qara daşlar dünyanın, bəlkə, üz ağlığıdır.
Niyə gəlib insanlar görmür mübhəm yerləri,
Səbəb yol deyil, milli hissin uzaqlığıdır.

Üzü şümal daşlarda Günəş güzgülənəndə,
Sanki üstdən aşağı nur seli axıb gəlir.
Səthində sirr daşıyan daşlarla birgə həm də
Tarix zaman bətnindən yollara çıxıb gəlir.

Yaxınlaşıb daşlara baxıram, toxunuram –
Danışan işarələr, piktoqrafik yazılar.
Alimlər bu daşların edibdi çoxunu ram,
Amma hələ nə qədər oxunmayan yazı var.

Bu daşda Günəş gördüm, o daşda dağ keçisi,
Birində ilan rəsmi, birində gəmi rəsmi.
Hanı bu qayaların dilinin bilicisi?
Bu qayanın adı nə, o daşın nədi ismi?

Yallı getmək istədim görəndə yallı rəqsi,
Ox gördüm, ovçu gördüm danışan qayalarda.
İndi kimə söyləyim bu qəribə həvəsi:
Mən oturub dinləyəm, danışa qayalar da.

Gəmiqaya daşları, bəlkə də, bir qayaya
Nuh babamın yazdığı səyahət dastandır.
Oğul gərək daşları birləşdirə, oxuya,
Bəlkə də, yubanmışıq, bəlkə də, zamanıdır.

Sərin bir payız günü buludlar yavaş-yavaş
Yağış hazırlığında bizi yola salırdı.
Xəyalımda sirrini açıb deyirdi hər daş...
Biz gedirdik, daşlarsa öz yerində qalırdı.

Gəmiqaya səfərim sirr içində sirr qaldı,
Tarixə toxunmağın özü də bir tilsimdi.
Ruhuma sığal çəkdi, könlümü əsir aldı,
Mənə yaşatdıqları bir ömürlük bəsimdir.

**Elxan YURDOĞLU**

*XX əsr Naxçıvan ədəbi mühitinin tanınmış və məhsuldar nümayəndələrindən biri Hüseyn Razi ziyalılar yurdu Ordubad rayonunun Dəstə kəndində dünyaya göz açıb. Mərkəzdən ucqarda bədii yaradıcılıqla məşğul olmağın, ədəbi mühitdə özünə yer tapmağın çətinlikləri bəlli olsa da, Hüseyn Razinin qəlbən Naxçıvana bağlılığı ona buradan uzaqlaşmağa imkan verməyib. O, Naxçıvanda yaşaya-yaşaya Azərbaycan ədəbi mühitində çox yaxşı tanınıb, sevilib, əsərləri ölkəmizin və digər ölkələrin yaradıcı şəxsiyyətləri tərəfindən çox yüksək qiymətləndirilib. Hüseyn Razinin çoxşaxəli yaradıcılığı Naxçıvan ədəbi mühitində yetişən şairlər üzərində də dərin izlər buraxıb, burada yetişən gənc nəsil onun yüksək poetik tutumu, sənətkarlıq xüsusiyyətləri ilə seçilən əsərlərindən təsirlənib.*

# Araz nəfəsli şair



Şübhəsiz, Hüseyn Razinin doğulub boya-başa çatdığı, yazıb-yaratdığı bu mühit onun bir sənətkar kimi formalaşmasında mühüm rol oynayıb. Naxçıvanın füsunkar təbiəti, qeyri-adi istedada malik insanları onun üçün ilham qaynağına çevrilib. Özünün bu mühit haqqında dedikləri də bunu təsdiqləyir: "İlləri xatırladıqca qəlbimin güzgüsündə ömrümün xəritəsi canlanır. Ona baxa-baxa qartallı dağların yaxasına sığınmış Ordubad, sahil üstə fikirli dayanmış Dəstə kəndi, bağ-bağatlı yamaclar, hər qarışında bir şəfa bulağı çağlayan təpələr, düzlər, nəğməli-bayatılı Arazın düşüncəli görkəmi xəyalımda aşkarlanır. Bu sahillər mənim ilk seyrəngahım, beşiyim, duyğu və düşüncələrimin bələdçisi, nisgil və həyəcanlarımın yazılmamış xatirə dəftəridir". Əsl şair təxəyyülünün məhsulu olan bu təsvir onun doğma yurd yerinə olan heyranlığının poetik təzahürüdür:

*Dünya desə də, Razi, böyük çaylara tərif,*
*Car çək, mənim xan Arazım, xan Arazım var.*

"Elə bir yerdə məskən salmışam ki, Arazın sahilləri boyunca Babəkin, Atabəylərin, Səfəvilərin ayaq izlərini saxlamış qranit sədlər, qala bürcləri kimi görünən silsilələr, İlanlı dağının göylərə ucalan zirvəsi, Dədə Ələsgərin, Qaçaq Nəbinin, Həcərin dolaşdığı Batabat, Salvartı yaylaqları, Arpaçay dəryaçası gözlərimin önündədir. Böyük Mirzə Cəlilin düşüncəli heykəli ilə hər gün üzləşirəm. Hüseyn Cavidin məzarı evimlə yanaşıdır. Hər gün sübh çağı Möminə xatın məqbərəsinə düşən işıqlar eyvanımın güzgüsündə titrəyir..." – deyən Hüseyn Razi yaradıcılığında Araz mövzusu aparıcı rola malikdir. O Araz ki bir xalqı iki yerə bölən bu çayın adı ayrılığın, kədərin rəmzinə çevrilmişdir. Böyük tarixi hadisələrə şahidlik edən, lakin həmin tarixi hadisələrin yaşanmasında heç bir günahı olmayan Araz torpaqlarımızın bölünməsinin sanki günahkarı elan edildi. Şair Araz çayını vəsf etdiyi şeirlərinin birində yazır:

*Köksündəki dağlar dayanıbdır necə məğrur,*
*Lakin Arazın qəlbi yetimdir, nigarandır.*
*Köksündə qopan zəlzələlər, güclü küləklər,*
*Sellər bu yerin qəlbinə hopmuş həyəcandır.*

Bu zəlzələlər, küləklər nəticəsində dilimizdə o vaxta qədər mövcud olmayan "Arazın o tayı", "Arazın bu tayı" ifadələri yarandı. Və beləliklə də, o tay, bu tayı yaradanların bütün günahları günahsız Arazın boynunda qaldı. Haqqında yazılanlar kimi: "Sərhədə dönən, arada qalan, hər iki tərəf üçün toxunulmaz olan çaylar bir deyil, iki deyil. Lakin yad xalqlar arasında təbii səddə dönməklə bir xalqın köksünü parçalayıb keçməyi eyniləşdirmək olmaz! Azərbaycanın şah damarlarından biri, min illərlə bütöv bir xalqın sevinc və bərəkət mənbəyi olmuş çay indi sərhəddir, ayrılıqdır, göz yaşıdır..." Bədxahların cızdığı Azərbaycan xəritəsində o sakit, dilsiz-ağızsız Araz torpaqların köksünə sancılmış qılınca döndü, suyu bulanıqlaşdı, lilləndi. Halbuki X əsr ərəb coğrafiyaşünası İbn Havrəl Araz barədə yazırdı: "Araz çayının suyu şirin, ləzzətli və yüngüldür". O zamandan bəri Araz Azərbaycan ədəbiyyatının əsas mövzularından, burada yaranan bədii nümunələrin əsas obrazlarından birinə çevrildi. Ona görə Hüseyn Razi kimi vətənpərvər, yaşadığı yerin təbiətinə aşiq olan şairin də bu mövzuya müraciət etməsi təəccüblü deyildi. Onun "Xan Araz" şeiri və "Araz üstündə" qəzəli birbaşa Araz çayına yazılıb:

*Hər il bu yerlərə bahar gələndə,*
*Sən odlu bəstəkar olursan, Araz.*
*Xan Araz,*
*Coşub dalğalan, Araz,*
*Can, Araz.*

Araza müraciətlə yazılan şeirdə şair yazda təbiətdə baş verənlərin təsiri ilə Arazın da bu torpaqdan ilham alaraq suyunun çoxaldığını, bulandığını təsvir edərək onu şirin nəğmələr çalan odlu bəstəkara bənzədir. Vaxtilə Xalq yazıçısı Mirzə İbrahimov deyirdi: "Hüseyn Razi hər yerdə varlığa münasibəti, poetik duyğuları haqqında izahat vermir. Bu münasibəti, bu hissiyyatı bədii sözlə canlandırmağa çalışır. Yəni o, çiçəyi görəndə oxuyur, daha "Dayanın, bir baxın görün mən necə oxuyacağam?" – demir. Hüseyn Razinin şeirində bu səmimiyyət lirik qəhrəmanına daxili bir məhəbbət və inam oyadır". Şairin Araza həsr olunmuş digər şeiri isə qəzəl janrında yazılmışdır. Ümumiyyətlə, Hüseyn Razi yaradıcılığında bəzən klassik ədəbiyyat ənənələrinə uyğun olaraq bu janra müraciəti az deyil. "Araz üstündə" qəzəli də bunlardan biridir:

*Onun üstündə "Segah", "Dəşti",*
*"Qatar" vəcdə gəlir,*
*Anamın laylası tək xoş ləpələr*
*nəğməsi var.*
*Burda Babək, Səfəvilər vətən*
*uğrunda ölüb,*
*Eldəgizlər beşiyi, Çənlibel əfsanəsi var.*
*Yeri düşdükcə ona tənəli sözlər demişik,*
*Razi, bir gün deyəcəklər*
*Arazın müjdəsi var.*

Hüseyn Razi əsərlərinin mövzusu birbaşa həyatdan götürülmüşdür. Ona görə də burada Araz çayının adı şərti xarakter daşımır, konkret obyekt bildirir və üslubi çalar daşıyır. Şair Araz mövzusuna poema yaradıcılığında da müraciət etmiş və 1975-76-cı illərdə qələmə aldığı "Sahil həsrəti" poemasını 1971-1975-ci illərdə tikilmiş Araz Su Elektrik Stansiyasının inşaatçılarına həsr etmişdir. Müəllif parçalanmış Azərbaycanın arasında qalan Arazın vəziyyətini ürək yanğısı ilə dilə gətirərək yazır:

*Nə üçün BMT gündəliyində*
*Mənim tələblərim qoyulmamışdır?!*
*Bizim yurdumuzu bir çox ölkələr,*
*Hələ bütöv bilir, qəribə işdir.*
*Yüz çay çalxalanıb indiyə qədər,*
*Arazdan bir kəlmə deyilməmişdir.*

Söhbətimizin əvvəlində də diqqətə çatdırdıq ki, Araz mövzusu Hüseyn Razi yaradıcılığında özünəməxsus yer tutur. Təsadüfi deyil ki, Xalq şairi Məmməd Araz onu "Araz təbli şair dostum" adlandıraraq deyirdi:

*Ey dostum Razi,*
*Gətir şeirimizə,*
*Gətir Arazı...*

Və doğrudan da, Hüseyn Razi Arazı şeirimizə çox böyük uğurla gətirmiş, onun möhtəşəm poetik obrazını yaratmışdır. Şair Arazın dalğın, bulanıq, qan tacı, nigaran olduğunu vurğulayaraq onun tarixin qanlı hadisələrinə şahidliyinə işarə etməklə birlikdə "Duymaq üçün axşamların sükutunu, lallığını, çıx Arazın sahilinə", – deyərək buranın insanlarının ona bağlılığını da poetikləşdirir. Şair öz xatirələrində Arazla bağlı hiss və duyğularını belə ifadə edir: "İndi də Arazın sahilinə çıxanda xışla yer şumlayan, taxıl əkən, xırmana, dəyirmana tələsən, çörək üçün min bir zəhmətə qatlaşan, gənclik arzuları qönçələnmiş, sinələri hərbin alovlarına gərilən yaşıdlarımın məğrur səsini eşidirəm. Buna görə də bir çox yazılarımda o illərdən titrək pıçıltılar, Arazdan kövrək nidalar var".

Hüseyn Raziyə görə, Araz təkcə bir coğrafi obyekt deyil, eyni zamanda xalqımızın keşməkeşli tarixini özündə yaşadan bir obrazdır. Onun təbiəti də insan təbiəti kimi haldan-hala düşə, dəyişə bilir. Gah coşub-daşır, gah da sakit, səssiz-səmirsiz axır. Kövrək Arazı vəsf edərkən sanki şairin misraları da kövrəkləşir. Lakin şair Arazı torpaqlarımızı ikiyə bölən bir çay kimi yox, Azərbaycanın birliyinin simvolu, hər iki sahili birləşdirən bir körpü kimi qiymətləndirir. İlin ayrı-ayrı fəsillərində suları bozarıb çalxalanan Arazın bu yerin insanlarına şirin nəğmə çaldığını poetik bir şəkildə oxucusuna çatdırır. Şairin Araz sevgisi onun Vətənə olan məhəbbətinin, buranın təbiət gözəlliklərinə olan heyranlığının təzahürüdür. Hüseyn Razi bu gözəllikləri çox sadə, anlaşılan, poetik bir dillə oxucularına çatdıraraq bir daha Arazı sevdirir. Bu mövzulu şeirlər onun geniş dünyagörüşü və aydın müşahidə qabiliyyətinin poetik düşüncələrə çevrilmiş ən yaxşı nümunələridir.

**Nuray ƏLİYEVA**
***filologiya elmləri doktoru***



# İlham Əliyevin “Tarixi ədalətin bərpası” strategiyasının yeni mərhələsi

## Qərbi Azərbaycana qayıdış hədəfi Böyük zəfərin yaratdığı hüquqi və siyasi reallıqdır

Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı tarixi bir zərurətdir. Bu, ədalətin bərpası, soydaşlarımızın təməl hüquqlarının təmin edilməsi istiqamətində növbəti addım kimi dəyərləndirilir.

Hər kəsin öz əzəli Vətənində yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda öz əksini tapıb. Azərbaycan xalqı Müzəffər Ali Baş Komandanın qüdrəti, apardığı uğurlu xarici və daxili siyasəti sayəsində qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün heç də uzaqda olmadığına tam əmindir.

*Yanlış qərar – tarixi xəyanət*

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və dəhşətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar minillər boyu yaşadıqları doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir. 1918-1920-ci illərdə yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, öz yurdlarını tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrilmiş, yüzlərlə Azərbaycan kəndi yer üzündən silinmişdir. Ötən əsrdə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Azərbaycanın bir sıra torpaqlarını sovet hakimiyyətinin köməyi ilə Ermənistan SSR-in ərazisinə daxil etməyə nail olmuşlar. 1920-ci ildə isə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə tarixi torpağımız olan Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdiriblər.

Azərbaycan Prezidenti cənab İlham Əliyev bunu xalqımıza qarşı növbəti cinayət kimi qiymətləndirib: ***“Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi”.***

1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalıb. SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il “Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olunub.

Ermənilərin İrandan Cənubi Qafqaza, indiki Ermənistan ərazisinə köçürülməsinin bilavasitə rəhbəri olmuş A.S.Qriboyedov yazır: “Ermənilər gətirilib müsəlman mülkədarların torpaqlarında yerləşdirilmişlər... müsəlmanları sıxışdırırlar, onlar da hey əsaslı olaraq narazılıq edib şikayətlənirlər. Biz müsəlmanları indiki sıxışdırmalara qatlaşmaq, bu sıxışdırmaların uzun sürməyəcəyinə inandırmaq, onların torpaqlarına ilk dəfə buraxılan ermənilərin bu torpaqlara həmişəlik yiyələnəcəkləri barədə nigarançılığı müsəlmanların beynindən çıxarmaq üçün onlara edilməli olan təlqinlər barədə çox düşündük... Ermənilər indiki Ermənistan ərazisində məskunlaşdırıldıqdan dərhal sonra öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından çıxarmağa, qırmağa, milli soyqırımına başladılar”.

S.P.Zelinski isə yazır: “Zəngəzur qəzasında Axlatian, Prnakot və Şinataq adlı cəmi üç erməni kəndi yerlidir, qalan erməni kəndləri 1826-1828-ci illərdən sonra təşkil olunmuşdur”.

N.Şavrov isə belə etiraf edir: “XX əsrin əvvəllərində Zaqafqaziyada məskunlaşan 1 milyon 300 min nəfər erməninin 1 milyonundan çoxu ərazinin yerli sakinləri olmayıb, bizim tərəfimizdən məskunlaşdırılmışdır”.

*Qərbi Azərbaycanın əsl sahibləri Azərbaycan türkləridir*

Bəli, bütün bu faktlar onu deməyə əsas verir ki, Qərbi Azərbaycan tarixi türk torpaqları, köklü sakinləri isə Azərbaycan türkləri olmuş, 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin nəticəsi kimi ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülmüşlər. Burada yaşayan azərbaycanlılar isə zaman-zaman –1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. 1988-1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan 250 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir.

Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırımına məruz qalmışdır. 27 may 1997-ci ildə Müstəqillik Günü münasibətilə keçirilən təntənəli yığıncaqda Ümummilli Liderimiz Heydər Əliyev azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiya olunmalarından danışarkən demişdir: ***“O vaxt yaşayan insanlar və doğma yerlərindən deportasiya olunanlar yaxşı xatırlayırlar: Ermənistan çox gözəl iqlimə – yəni bu torpaqlar vaxtilə Azərbaycan torpaqları olub – malik olan yaşayış yerlərindən insanları gətirib evsiz-eşiksiz Mil-Muğan çöllərinə salanda, əlbəttə ki, onlar o şəraitdə yaşaya bilməyəcəkdilər. Məlumdur ki, o vaxt bir çox insanlar qırıldı, tələf oldu, əzabəziyyət çəkdilər. Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər. Hesab edirəm ki, bu da bizim xalqımıza qarşı edilən ən böyük ədalətsizlikdir. Beləliklə, o vaxt Ermənistandan azərbaycanlıların çıxarılması, etnik təmizləmə baş veribdir. Onları öz yerlərindən, yurdlarından, doğma torpaqlarından o vaxt didərgin salıblar. Təəssüflər olsun ki, biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımı qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistan Azərbaycana artıq açıq təcavüz edibdir. O dövrdə Ermənistan ərazisində qalmış azərbaycanlılar qısa müddətdə Ermənistandan zorla çıxarıldılar. Ermənistan deyəndə o ərazinin keçmişdə kimə mənsub olduğu məlumdur. O ərazinin çox hissəsi azərbaycanlıların əsrlərdən-əsrlərə yaşadıqları doğma diyar olubdur. Onların öz dədə-baba yurdlarından tədricən çıxardıblar və bunlar hamısı da 1988-ci ildə Ermənistanın Azərbaycana artıq hərbi təcavüzünün başlanmasına gətirib çıxarıbdır”.***



Qərbi Azərbaycan ərazisindəki türk mənşəli adların dəyişdirilməsi siyasəti isə 1828-ci il fevralın 10-da bağlanan Türkmənçay müqaviləsindən sonra, XIX əsrin 30-cu illərindən sistemli formada və məqsədli şəkildə həyata keçirilmiş və adların dəyişdirilməsi siyasəti inqilabdan sonra yeni vüsət almış, minlərlə kənd adı məhv edilmiş, rəsmi qərarlarla adların bir qismi ruslaşdırılmış, bir qismi isə qondarma erməni adları ilə əvəz edilmişdir.

Bu gün Qərbi Azərbaycan ərazisindəki etnotoponimlərin öyrənilməsi xüsusi əhəmiyyət daşıyan məsələdir. Qərbi Azərbaycan ərazisində azərbaycanlıların etnogenezində müxtəlif qədim türk tayfaları iştirak etmişdir. Həmin tayfalar, təbii ki, Şimali və Cənubi Azərbaycan ərazilərindəki toponimlərdə də iz qoymuşlar. Tarixi faktlar hələ eramızdan əvvəl VIII əsrdə türk etnoslarının Qərbi Azərbaycan ərazisində yaşamasını təsdiq edir. Qərbi Azərbaycan ərazisindəki toponimlər arasında etnotoponimlərin sayı az deyildir. Onların hər biri müxtəlif türk etnoslarının, xüsusilə oğuzların bu ərazilərin aborigen sakinləri olduğunu sübuta yetirir.

Sevindirici haldır ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun davamçısı Prezident cənab İlham Əliyev dövlətimizin milli maraqlarına və Azərbaycançılıq ruhuna sadiq qalaraq torpaqlarımızın tarixinə və mədəniyyətinə sahib çıxılmasının önəmini hər zaman vurğulayır, Zəngəzurun tarixi Azərbaycan torpağı olduğunu bütün beynəlxalq kürsülərdən bəyan edir.

*Tarixi dönüş anı*

2020-ci ildə Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 il yaxın işğal altında qalan torpaqlarımız 44 gün ərzində düşməndən azad edildi. 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfər tariximizə yeni bir salnaməni həkk etdi. Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm qələbə yeni reallıqlar yaratdı. Hər günü bir tarix olan 44 gündə ərazi bütövlüyünü bərpa edən ölkəmiz 24 saatdan az bir vaxtda reallaşdırdığı antiterror tədbirləri ilə öz qətiyyətini bütün dünyaya növbəti dəfə nümayiş etdirdi. Dövlətimiz qalib dövlət, xalqımız isə qalib xalq kimi dünya tarixinə öz möhürünü vurdu. Azərbaycanın ağrılı problemlərindən olan Qarabağ məsələsi birdəfəlik həll edildi. Azərbaycan ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlıları vaxtından əvvəl çıxdılar, Qazax rayonunun 4 kəndi bir güllə atılmadan geri qaytarıldı.

Qələbəmizdən doğan tarixi reallıqların nəticəsidir ki, qarşıda soydaşlarımızı Qərbi Azərbaycana qayıdış gözləyir. Ölkə rəhbərinin də qeyd etdiyi kimi: ***“Hazırda isə tarixi qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın öz yurdlarına qayıtması məsələsidir”.*** Bu hədəfi Prezident cənab İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqində bəyan etmişdir. Görüşdə ölkə başçısı tarixi faktlara nəzər salaraq Qərbi Azərbaycanın əzəli və əbədi tarixi torpaqlarımız olduğunu dünya ictimaiyyətinə bir daha çatdırdı: ***“Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin”.***

Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə qərbi azərbaycanlıların qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qaldığını bildirən cənab Prezident müasir dövrümüzdə onların hüquqlarının bərpa edilməli və əzəli torpaqlarına qayıtmalı olduqlarını bildirdi: ***“Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq”.***

*Qayıdış konsepsiyasına Naxçıvanın əməli töhfəsi*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya qəbul olundu. Sistemli layihələrin həyata keçirilməsinə başlanıldı.

Bütün istiqamətlərdə olduğu kimi, Prezident cənab İlham Əliyevin Qərbi Azərbaycana qayıdışla bağlı səsləndirdiyi fikirlər və bu tezislərdən irəli gələn məsələlər Naxçıvan Muxtar Respublikasında da daim diqqətdə saxlanılır. Muxtar respublika rəhbərliyi bu istiqamətdə ardıcıl və sistemli iş həyata keçirir.

Bu istiqamətdə atılan ən mühüm addımlardan biri də ölkədə ilk dəfə olaraq Naxçıvanda 2 il ardıcıl olaraq “Qərbi Azərbaycana qayıdış” festival-konqresin reallaşdırılmasıdır. Festival-konqresin keçirilməsində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin, eləcə də şöbənin müdiri Ədalət Vəliyevin təşəbbüsünü, dəstəyini xüsusilə qeyd etməliyik. Müzəffər Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi ***“Bizi Qərbi Azərbaycana böyük qayıdış gözləyir”*** hədəfi istiqamətində Naxçıvanda keçirilən festival-konqresin yüksək səviyyədə reallaşması Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və onun rəhbəri Fuad Nəcəflinin ardıcıl həyata keçirdiyi işlərdən xəbər verir.

Səlahiyyətli nümayəndəliyin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilən “Qərbi Azərbaycana qayıdış” adlı festival-konqresin əsas məqsədlərindən biri tarixi ədalətin bərpa edilməsi yolunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yurd-yuvasından didərgin, qaçqın düşmüş Azərbaycan türklərinin tarixi haqlarının bərpasına istiqamətlənmiş siyasətin elmi əsaslarla həm yerli, həm regional, həm də beynəlxalq səviyyədə işıqlandırılmasına nail olmaq, ölkənin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yenilikləri dinləmək və fikir mübadiləsi aparmaq idi.

Son yüzillik tariximizdə ilk dəfə Qərbi Azərbaycan maddi mədəniyyət nümunələri, sənət əsərləri, ailə-məişət ənənələri, milli geyim kolleksiyaları, zəngin folklor və şifahi xalq ədəbiyyatı nümunələri, mahnıları, yallıları, aşıq havaları, rəqslər təqdim edildi. Mövzu ilə bağlı filmlərin təqdimatı, kulinariya sərgisi, tarixi və müasir rəsm, dekorativ-tətbiqi sənət əsərləri, kitab, monoqrafiya, məqalələr, yaradıcılıq nümunələri kompleks şəkildə nümayiş olundu. Qərbi Azərbaycan mətbəxinə məxsus olan 250 çeşiddə kulinariya sərgisi açıldı. Naxçıvan Dövlət Universitetində keçirilən konqres hissəsində 7 istiqamət üzrə 30-a yaxın bölmədə 300-dən çox məruzə dinlənildi.

Festival-konqres ölkə mediası daxil olmaqla, ümumilikdə, 190 adda qəzet, jurnal, televiziya, xəbər saytlarında işıqlandırılmışdır. Eləcə də 20-dən çox xarici ölkə mediasında yer almış və həmçinin bundan narahatçılıq keçirən Ermənistan mediasında təşvişə səbəb olmuşdur.

Bütün istiqamətlərdə olduğu kimi, Prezident cənab İlham Əliyevin Qərbi Azərbaycana qayıdışla bağlı səsləndirdiyi fikirlər və bu tezislərdən irəli gələn məsələlər də Naxçıvan Muxtar Respublikasının rəhbərliyi tərəfindən gündəlik fəaliyyət istiqaməti olaraq müəyyən edilib.

Bu gün xalqımız Müzəffər Ali Baş Komandanın qüdrəti və apardığı uğurlu xarici və daxili siyasəti sayəsində qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün uzaq olmadığına tam əmindir və öz liderinin ətrafında sıx birləşərək yeni qələbələrə zəmin yaradır.

**Arzu ABDULLAYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent*




# 100 ilin qəhrəmanları

***"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan şəhidimiz Fərid Mehbalının anası Nargilə Mehbalıyevanın, Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan şəhidimiz Elməddin Qəhrəmanovun anası Təranə Qəhrəmanovanın və Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan şəhidimiz Tural Əsgərlinin anası Nüşabə Əsgərovanın övladları haqqında xatirələri yer alıb.***





## Fərid Kəmaləddin oğlu Mehbalı

*(18.01.1994-13.09.2022)*

### Vətəninə qırılmaz tellərlə bağlı idi





Fərid ailəmizin ilk oğul övladı idi. Böyük xəyallarla yaşayırdı. Həmişə deyirdi ki, anacan, mən böyüyüb sənin qulluğunda layiqincə dayanacağam. Mən isə deyirdim ki, oğlum, çalış general ol, məni general anası et. Sözlərimə, tapşırıqlarıma elə hörmətlə yanaşırdı ki... Elə uşaqlıqdan ailəyə yanımlı, ataya, anaya hörmətli idi. Heç unutmaram; hər dəfə atası işdən evə gələndə Fərid atasının ayağına durardı, ehtiram göstərərdi. Bir sözlə, Fərid əsl hərbçi keyfiyyətlərinə malik oğul idi. Elə ona görə də taleyi onu ən məsuliyyətli və çətin peşəyə – hərb işinə çəkib apardı.

Səkkizinci sinifdə oxuyarkən öz istəyi ilə Heydər Əliyev adına Hərbi Liseyə sənəd verdi. Qəbul olundu. Təhsil müddətində nizam-intizamı, savadı, nümunəvi zabit keyfiyyətləri ilə seçilirdi. Tərifnamələr, fəxri fərmanlar, təşəkkürnamələr alırdı. Naxçıvanda təhsilini başa vurduqdan sonra Bakıdakı ali hərbi məktəbdə təhsilini davam etdirdi. Oranı da yüksək qiymətlərlə başa vurdu. Hərbi formasını əyninə geyinib xidmətə başlayanda da öncə Vətən dedi, Vətən söylədi. Deyirlər, ailəsini sevən kişi Vətənini də sevər, onu ailəsi kimi qoruyaraq keşiyində dayanar. Fərid ailəsini o qədər sevirdi ki, bizim bir an narahat olmağımızı, ondan nigaran qalmağımızı qəbul edə bilmirdi. Tez-tez əlaqə saxlayırdı. Telefon danışığımızda çalışırdı ki, bizə çox şey bildirməsin. Hətta Vətən müharibəsinin astanasında belə bizdən hər şeyi gizlətmişdi. Nə zaman əhvalını soruşsaq, işinin üstündə olduğunu deyirdi.

Xatırlayıram; müharibənin başlamasına bir neçə gün qalmış onları birgünlük məzuniyyətə buraxmışdılar. Soruşanda ki, ay Fərid, bəs nə üçün belə bir vaxtda geri qayıtmısınız? Cavab verdi ki, ana, məktəbqabağı uşaqlarımıza məktəb ləvazimatları almaq üçün icazə veriblər. Daha sonra yenidən təlimə qayıdacağıq. Bax belə bir oğul idi Fərid: çətinliyə dözən, işini, peşəsini canından artıq sevən, Vətəninə qırılmaz tellərlə bağlanan. Müharibənin odu, alovu içərisində ağır yaralansa belə təmkinini qoruyan, əsl hərbçi kimi Vətən söyləyən, elə azad Vətən sevgisi ilə də dünyaya əbədi gözlərini yuman.

Onun şəhadətindən sonra haqqında o qədər yaxşı fikirlər eşitdim, o qədər xoş sözlərin, qürurverici xatirələrin şahidi oldum ki... Hər kəs onun nümunəvi hərbçi olduğunu, xidmətində ayıq-sayıq dayandığını söyləyirdi. Komandiri, eləcə də müharibədə onunla birlikdə olan xidmət yoldaşları deyirlər ki, döyüşdə Fərid qolundan yaralanmışdı. Onu geriyə təxliyə etmək istəsək də, Fərid razılaşmırdı. Deyirdi ki, nə böyük yaradır. Bundan ötrü geri qayıtsam, mənə nə deyərlər. Halbuki vəziyyəti dediyi kimi sadə deyilmiş, çox ağır imiş. Komandiri deyir ki, o vəziyyətdə belə öz təmkinini qoruyurdu, biz onu ürəkləndirirdik. Deyirdik ki, Fərid, bu yaraya görə dünyaya göz yummaq olmaz ha, bərk dayan. Hər şey yaxşı olacaq. Dediklərinə görə, oğlum həmin yara ilə geriyə qayıdarkən qan itirmədən dünyasını dəyişib, şəhidlik zirvəsinə ucalıb. Ölümü ilə başda ailəsi olmaqla, onu sevən hər kəsin ürəyini özü ilə apardı. Hətta sonradan eşitdik ki, şəhid olduğu xəstəxanada belə həkimlər, onu tanıyanlar Fərid üçün gözyaşı tökürmüşlər. Nə deyə bilərik? Allah başda oğlum Fərid olmaqla bütün Azərbaycan şəhidlərinə rəhmət etsin, yerləri cənnət olsun. Biz onlarla hər zaman fəxr edəcəyik.

## Elməddin Niyaməddin oğlu Qəhrəmanov

*(26.01.1997-06.10.2020)*

### Xalqının, millətinin dillər əzbəri oldu





Elməddin elə balacalığından hərbiyə maraqlı idi. Yaşadığımız məhəllədə iki hərbçi var idi. Onları görəndə elə sevinirdi ki... Atılıb-düşürdü ki, ana, bax, mən də onlar kimi hərbçi olacağam. Böyüyəndə mən də o formanı əynimə geyinəcəyəm. Onun ikinci arzusu isə bayrağımızı azad Vətən göylərində dalğalandırmaq, şəhid olsa belə torpaqlarımızı işğaldan azad etmək idi. Cəmi iki il o formanı əynində daşıdı Elməddin, cəmi iki il çalışdı, qazandığı məvacibi belə bizə göndərib deyirdi ki, ana, ata, evimizi təmir edin. O iki il ərzində evimizi düzəltdik. 2020-ci il yanvarın 26-da Elməddinə nişan apardıq. Həmin gün həm də doğum günü idi. İkisini bir gündə qeyd etdik. Oğlum özü ilə birgə mənim ürəyimi də apardı. Elməddin mənə həm ata, həm ana, həm bacı-qardaş, yaxın yoldaş, dərdimi danışa biləcəyim, ürək sirrimi bölüşə biləcəyim yoldaş idi.




Hər dəfə zəng edəndə saatlarla danışırdıq. Atasını da çox sevirdi. Ancaq hər sirrini mənimlə bölüşürdü. Axşamlar işdən vaxt tapan kimi mənə görüntülü zəng edirdi. Saatlarla söhbətləşirdik. Atası gəlib bizə gülürdü, soruşurdu ki, siz ana-bala hələ danışıb qurtarmamısınız? Bax belə bir oğul idi Elməddin: sözü-söhbəti şirin, ürəyi böyük, mənəviyyatı zəngin.

Onunla sonuncu dəfə ayın 6-sı danışdım. Axşamüstü, saat 6-7 radələri idi. Elə son danışığımız da o oldu. Məndən halallıq aldı, atasını soruşdu, qardaşlarını xəbər aldı. Atası evdə deyildi. Dedi ki, ana, atam gələndə də zəng edəcəyəm. Bilirəm, o da məndən yana narahatdır. Nigaran qalmayın, hər şey yaxşı olacaq. Müharibənin odu-alovu içində mənə təskinlik verirdi. Ana, narahat olma, hər şey qaydasındadır, – deyirdi. Bilirdim ki, məni sakitləşdirmək üçün elə danışır. Şəhidlik zirvəsinə ucalmamışdan bir neçə gün əvvəl danışanda dedi ki, ana, Ağdam uğrunda döyüş gedir. Müharibənin çox həssas yeridir. Ağdamı mütləq azad etməliyik. İşğal altında olan bütün torpaqlarımızda bayrağımızı dalğalandırmalıyıq.

Bir sözlə, öldü var, döndü yoxdur. Elə bu istəklə də döyüşlərə atılmışdı. Dostlarının, döyüş yoldaşlarının söylədiyinə görə, qəhrəmanlıqla vuruşub. Ayın 6-sı isə şəhid oldu. Ayın 12-si Naxçıvana gətirildi. Elə həmin gün torpağa tapşırıldı. Böyük hörmət və ehtiramla... Allah bütün şəhidlərimizə rəhmət etsin. Onlar xalqımızın xatirəsində daim anılacaqlar...

## Tural Ələmdar oğlu Əsgərli

*(20.04.1993-01.10.2020)*

### Yaşadığı torpağa, el-obaya şərəf gətirən igid





Vətənini sevən övlad idi. Atası dünyasını dəyişəndə ailəsi, bacıları təkid etdilər ki, xidmətini dayandır, ailəmiz başsızdır. Qayıt gəl, ailənin başında dayan. Razılaşmadı. Dedi ki, ailəm hər çətinliyə dözməlidir. Çünki Vətən darda, torpaqlarımız düşmən tapdağı altındadır. Mən belə şəraitdə xidmətimi dayandıra bilmərəm. Sözünə sona qədər əməl etdi. Dövlətinə olan sevgisiylə öz vəzifəsinin başında dayandı. O, dövlətini də, işini də, peşəsini də çox sevirdi.

Hələ məktəbdə oxuduğu illərdən nümunəvi şagird idi. Ardınca kollecdə təhsil aldı və orada da nizam-intizamı ilə pedaqoji kollektivin sevimlisinə çevrilmişdi. Ailədə də elə idi, ata-anasını sevən, onların daim qulluğunda dayanan oğul idi balam. Onunla sonuncu dəfə oktyabr ayının 1-i danışdım. O günü heç unuda bilmirəm. İşdən yenicə qayıtmışdım ki, telefonuma zəng gəldi. Açdım. Danışan Tural idi.




Səsindəki həyəcanı hiss edirdim, ancaq ona bildirməməyə çalışırdım. Hiss edirdim ki, o da məndən nigarandır. Elə hey deyirdi ki, anacan, çətin yoldayıq, işdir, əgər şəhid olsam, ağlama, möhkəm dayan, başını dik tut, məğrur ol. Telefon danışığını bitirəndən sonra mənə dediklərini həm də mesaj kimi göndərmişdi. Bir cümləni heç unuda bilmirəm, yazmışdı ki, anacan, sən mənim dünyamsan. Belə sözləri hər dəfə deyirdi mənə, çalışırdı ki, könlümü xoş etsin, sevindirsin. Tural iki bacının bir qardaşı kimi hər birimizin ümidi, pənahı idi. Bir sözlə, qeyrətli övlad idi.

Yaxşı xatırlayıram; atası dünyasını dəyişəndə də xidmətdə idi. Tez-tez mənə zəng edib deyirdi ki, anacan, atamsız mən necə dayanacağam? Arxam, dayağım atam idi, indi kürəyimi kimə söykəyəcəyəm? Danışanda məni qəhər boğurdu. Çalışırdım, təskinlik verim, ürəyini sıxmayım. Ancaq bilirdim ki, iş başında olsa da, fikri daim mənim yanımdadır, məni düşünür, bacılarını düşünür, ailəsini düşünür. Oğlumla sonuncu danışığımızdan bir gün sonra daha zəng gəlmədiyini gördüm. Nigaran qaldım. Telefonuna dəfələrlə zəng etdim, ancaq cavab verən olmadı. Bir gün çəkmədi ki, şəhid xəbəri gəldi. Sən demə elə oktyabr ayının 1-i sonuncu danışığımız imiş. Elə həmin gün də şəhid olub.

O, daim mənim qəlbimdədir, canımdadır, ruhumdadır. Allah Vətənimizin azadlığı yolunda canını qurban verən bütün şəhidlərimizə rəhmət etsin. Məkanları cənnət olsun. Çalışırıq ki, övladlarımızın vəsiyyətinə əməl edək: başımızı dik tutaq, məğrur dayanaq. Bundan sonra geridə qalan ömrümüzü onların adına layiq şəkildə başa vuraq. Mən övladımla fəxr edirəm, qürur duyuram.

## COP29 çərçivəsində Naxçıvanda "Yaşıl enerji" könüllüləri yaradılıb



Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti bölgədə alternativ və bərpa olunan enerji mənbələrinin təşviqi məqsədilə yeni bir təşəbbüsə imza atıb. Xidmət tərəfindən həyata keçirilən bu layihə çərçivəsində "Yaşıl enerji" könüllüləri yaradılıb.

Energetika Xidmətinin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, "Yaşıl enerji" könüllüləri COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayevin Naxçıvana səfəri zamanı onun verdiyi tövsiyə əsasında formalaşdırılıb.

"Yaşıl enerji" könüllülərinin yaranması "Caspian Energy Club" "LEF Network Azerbaijan" layihəsi çərçivəsində Latviya, Estoniya və Finlandiya şirkətləri üçün Naxçıvan Muxtar Respublikasına təşkil edilən "Business Tour"un forumunda elan edilib. Layihənin əsas məqsədi Naxçıvanda "yaşıl enerji"nin imkanlarını və faydalarını geniş kütləyə çatdırmaq, xüsusilə də gənclər arasında ətraf mühitin qorunması ilə bağlı maarifləndirmə işlərini gücləndirməkdir. Könüllülər qrupu bərpa olunan enerji texnologiyalarının tətbiqində, "yaşıl enerji" sahəsində təlim və infosessiyalar keçirməkdə fəal rol oynayacaq. Həmçinin könüllülər tərəfindən startup layihələr də təqdim olunacaq.

Layihənin tərkib hissəsi olaraq könüllülər seminarlar, təlimlər və ictimai tədbirlər təşkil edəcəklər. Könüllülər həm də əhalini enerjiyə qənaətə və bərpa olunan enerji mənbələrindən istifadəyə təşviq edəcəklər. Layihənin ilk mərhələsində könüllü qrupu formalaşdırılaraq təlimə cəlb ediləcək. Könüllülər üçün ingilis dilində kurslar da təşkil ediləcək. Gələcəkdə isə könüllülərin sayının artırılması planlaşdırılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti bu barədə açıqlamasında qeyd edib: "Bu təşəbbüs ətraf mühitin qorunmasını ön planda tutan bir nəsil yetişdirmək məqsədi daşıyır. Biz inanırıq ki, gənclər "yaşıl enerji" həllərinin gələcəyini formalaşdırmaqda əsas rol oynayacaqlar".

## Naxçıvan Dövlət Energetika Xidməti xalis sıfır emissiyanı hədəfləyir



Muxtar respublikanın elektrik enerjisi tələbatından asılı olaraq bəzən elə aylar, günlər, saatlar olur ki, təminatın bərpa olunan və alternativ enerji mənbələri hesabına ödənməsinə imkan yaranır. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti şəbəkənin qərarlaşmış rejiminin optimallaşdırılması və effektivliyinin artırılmasını təhlil etməklə sırf alternativ enerji mənbələrindən istifadə ilə karbon emissiyasının atmosferə atılmasının qarşısını alaraq sıfıra endirilməsinə töhfə verməyi qarşıya məqsəd kimi qoyub.

Bu barədə "Şərq qapısı"na Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin mətbuat xidmətindən bildirilib.

Qeyd edilib ki, oktyabrın 11-də muxtar respublikanın 947 min 508 kilovatsaat elektrik enerjisinə tələbatı tam "yaşıl enerji" hesabına ödənilib, digər günlərlə müqayisədə, təqribən, 130000 kubmetr həcmində təbii qaza qənaət edilib, həmin gün karbon emissiyası sıfıra düşüb. COP29 çərçivəsində bu addımların atılması muxtar respublikada alternativ enerji mənbələrindən daha səmərəli istifadə edilməsinə səbəb olacaq.

"Qlobal istiləşmənin yaratdığı iqlim dəyişikliyi ilə mübarizə aparmaq məqsədilə ətraf mühiti təmiz saxlamaq, gələcək nəsillərə daha təmiz və yaşana bilən dünya miras buraxmaq üçün ətraf mühitə daha həssas yanaşmalı, elektrik enerjisindən nəzarətsiz istifadənin qarşısını almalı, qənaətlə istifadə etməli, israfçılıq etməməliyik", – deyə Energetika Xidmətinin mətbuat xidməti əlavə edib.

## Ordubad şəhərindəki Cümə məscidində aparılan təmir-bərpa işləri yekunlaşır





Ordubad şəhərində yerləşən Cümə məscidində təmir-bərpa işləri aparılır. Bu tədbirlər çərçivəsində məscidin həm xarici görünüşü, həm də daxili tərtibatı yenidən qurulur. Məscidin memarlıq üslubuna uyğun olaraq bərpa edilən detalları tarixi abidənin əzəmətini qoruyaraq müasir dövrün tələblərinə cavab verəcək şəkildə yenilənir. Xüsusilə məscidin içərisində aparılan yekun tamamlama işləri, məkanın estetik və funksional tələblərinə cavab verərək ibadət edənlər üçün rahat mühitin yaradılmasına yönəlib.

Həmçinin məscid ətrafında hamarlama və asfalt işləri də görülür ki, bu da həm məscidə, həm də onun ətrafındakı tarixi və ictimai əhəmiyyətə malik məkanlara rahat və təhlükəsiz giriş-çıxışı təmin edəcəkdir. Məscid ətrafının abadlaşdırılması Ordubadın ümumi tarixi atmosferinə uyğun həyata keçirilir və gələcəkdə şəhərin ümumi infrastrukturuna müsbət təsir göstərəcəkdir.

Həyata keçirilən təmir-bərpa işləri, Ordubadın zəngin tarixi irsinin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

## Naxçıvanda su anbarları çöküntülərdən təmizlənir



Muxtar respublikada əhalinin ekoloji cəhətdən təmiz və keyfiyyətli, eyni zamanda dayanıqlı içməli su ilə təmin olunması diqqət mərkəzindədir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən içməli su anbarlarında hovuzların çöküntülərdən yuyularaq təmizlənməsi işlərinə start verilib.

Agentliyin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, Şahbuz Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi və İctimai Səhiyyə Xidməti Naxçıvan Regional Mərkəzinin Sanitar Epidemiologiya Şöbəsinin əməkdaşları tərəfindən Şahbuz Şəhər Su Təmizləyici Qurğular Kompleksinin 2500 kubmetr həcmində olan su anbarı yuyularaq şəffaflaşdırılıb, xlorlu əhəng məhlulu ilə dezinfeksiya işləri aparılıb. Dezinfeksiya işləri yekunlaşandan sonra hovuz su ilə doldurulur. Hovuz tam dolduqdan sonra sudan yeni nümunələr götürülərək laboratoriyada analiz ediləcək. Analizin nəticələrindən asılı olaraq suyun şəbəkəyə ötürülməsi təmin olunacaq.

Vətəndaşların təmiz və keyfiyyətli içməli su təminatının yaxşılaşdırılması üçün tədbirlərin muxtar respublikanın digər rayonlarında da keçirilməsi nəzərdə tutulub.

## "Muxtariyyət kuboku" uğrunda intellekt yarışının qalibi bəlli olub



"Şərq qapısı" xəbər verir ki, Naxçıvan şəhərində yeniyetmələrin "Muxtariyyət kuboku" uğrunda "Xəmsə" Milli İntellektual Oyunu üzrə muxtar respublika birinciliyinin final mərhələsi keçirilib. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş yarışa şəhər və rayon mərhələlərinin qalibləri olmaqla, ümumilikdə, 8 komanda qoşulub.

İntellekt yarışı gənc nəsil arasında qədim diyarımızın tarixi, ictimai-siyasi və yaradıcı mühiti, 100 illik muxtariyyət tarixi ilə bağlı bilgilərini zənginləşdirmək, onların intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq məqsədinə xidmət edib.

5 raundluq maraqlı intellekt mübarizəsinin yekununda Sədərəyin "Turan" komandası bütün rəqiblərini geridə qoyaraq qalibiyyətə nail olub. Şahbuzun "Keçili" və Ordubadın "Qapıcıq" komandaları yarışı müvafiq olaraq ikinci, üçüncü sıralarda tamamlayıblar.

## Muxtar respublikada yük və sərnişin daşınma artıb

"Şərq qapısı"na Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-sentyabr aylarında muxtar respublikada nəqliyyat sektorunda 5 milyon 359 min 700 ton yük, 35 milyon 374 min 400 sərnişin daşınıb. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 0,7 faiz, sərnişin daşınması isə 1,2 faiz artıb.



## Ekodüşərgə uğurla reallaşdı





COP29 və "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında könüllü gənclər və məktəblilər üçün birgünlük ekoloji düşərgə təşkil olunub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər, Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə reallaşan düşərgədə müxtəlif təlimlər, intellektual yarışlar, əyləncəli idman oyunları, hiking yürüşü və təmizlik aksiyası keçirilib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, iştirakçılarla görüşdə Gənclər və İdman Nazirliyinin şöbə müdiri İlahə Haqverdiyeva, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Saleh Həsənov düşərgənin məqsəd və hədəfləri haqqında danışıb, proqramdakı fəaliyyətləri diqqətə çatdırıblar.

Qeyd olunub ki, ölkəmizin COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməsi, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili", Naxçıvanın "yaşıl enerji zonası" elan olunması, ümumilikdə, ekosistemin qorunması sahəsində həyata keçirilən mühüm və ardıcıl tədbirlər Azərbaycanın iqlim dəyişmələri ilə mübarizəyə həssas yanaşmasının, qlobal müstəvidən baxışının göstəricisidir. Muxtar respublikada da iqlim dəyişmələri ilə mübarizə, təhlükəsiz və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə sahəsində innovativ layihələr icra olunur, müxtəlif tədbirlər keçirilir.

Düşərgədə Naxçıvan Dövlət Universitetinin müəllimi Hüseyn İmanovun "Ekologiya və biz", "Naxçıvan Ekoloji Maarifləndirmə və Ətraf Mühitin Mühafizəsinə Dəstək" İctimai Birliyinin idarə heyətinin üzvü Günel İbrahimovanın "Ekoloji maarifləndirmədə motivasiya" adlı təlimlər reallaşıb. Gün boyunca gənclər əyləncəli idman oyunlara, intellektual yarışmaya cəlb olunub, Batabat yaylağı istiqamətində hikinq yürüşü ediblər.

## DYPİ-nin əməkdaşı: "Yeni qaydalar Naxçıvan şəhərində yol hərəkəti təhlükəsizliyinin təmin olunmasına xidmət edir"



Naxçıvan şəhərində yol hərəkəti təhlükəsizliyinin təmin olunması, xüsusilə də yol-nəqliyyat hadisələrinin qarşısının alınması, eyni zamanda nəqliyyat sıxlığının aradan qaldırılması üçün şəhərə giriş, şəhərdaxili hərəkətdə məhdudlaşma tətbiq edilib.

Bu barədə "Şərq qapısı"na açıqlamasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşı, polis mayoru Ayaz İsmayılov deyib.

O qeyd edib ki, şəhərdaxili icazə verilən maksimum kütləsi 5 tondan çox olan yük avtomobillərinin səhər saat $7^{00}$-dan axşam saat $8^{00}$-dək hərəkəti qadağan olunub. Bunun üçün Avtomobil Yolları Dövlət Agentliyi ilə birgə müvafiq məlumatverici, eləcə də qadağanedici yol nişanları quraşdırılıb.

"Dövlət Yol Polisi olaraq yükdaşıma fəaliyyəti həyata keçirən və bu istiqamətdə çalışan həm fiziki, həm hüquqi şəxslərdən tələbimiz odur ki, yükdaşıma fəaliyyətlərini qeyd olunan şərtlər daxilində həyata keçirsinlər", – deyə Ayaz İsmayılov əlavə edib.

# Toy və yas biznesinin əsirləri

– İçəri girib ata-anamı otaqda narahat vəziyyətdə görəndə dalağım sancdı. Divanda oturub dinib-danışmadan gözlərini tavana zilləmişdilər. Otağa dərin bir sükut çökmüşdü. Bəd xəbər eşidəcəyimə şübhə yoxdu. “Nə olub, nə baş verib”, – deyə soruşanda da dinmədilər, elə ki səsimi ucaldıb sualı təkrarladım, anam stolun üstünə işarə etdi. Ora baxcaq mənim də nitqim qurudu və onların yanında yerə çökdüm. Stolun üstündə üç toy dəvətnaməsi vardı.





**Hüseyn ƏSGƏROV**
*yazıçı-publisist*

Tanışım nəql etdiyi bu epizoda bir qədər yumor qatsa da, reallıqdan da uzaq deyildi. Toy dəvətnamələri alanda dərdə-qəmə batanları azmı görmüşük? Qaşları çatılır, sifətin mimikası dəyişilir, içəridən, haradasa ürəyin dərinliklərindən bir ah qopur. Nədəndir bu ah? Axı səni toya, yeni ailə quran gənclərin xoş gününə çağırıblar, sevinmək, şadlanmaq əvəzinə nədir sənin dərdin?

Ritorik sualın cavabı bəllidir, səni elə bir yerə dəvət edirlər ki, aldığın əməkhaqqının bir hissəsini üzərində “Oğlan evi”, yaxud “Qız evi” yazılmış qutuya salmalı olacaqsan. Toy bahalı şadlıq sarayında keçirilirsə, qiymətlər məlumdur, bir yerin qiyməti azı yüz manat. Orta statistik ailə ayda azı 3, ildə isə 20 dəfə toya gedir. Hər getdiyi toya isə minimum 50 manat ödəyir. Bu zaman ailə aylıq gəlirinin 34 faizini toya ödəmiş olur. Buna görə də əksəriyyət toy dəvətnaməsi alanda sevinə bilmir. “Toy olsun, bayram olsun, həyat firavan olsun”, – deyə oxuyuruq, qol götürüb oynayırıq da, amma ay ərzində üç-dörd toydan sonra firavanlıq arxa plana keçir axı...

### Bu günlərdə iştirak etdiyim toy

Masanın üstündə nələr yoxdur, bircə quş südü çatışmır ki, alkoqollu içkilər olan yerdə ona ehtiyac yoxdur. Vur ki, vurasan. Filan qədər pul salır toya, heç olmasa, bir hissəsi yeyib-içməklə kompensasiya edilsin. Toyların birində məhdud hərəkətli qonağa söz verdilər. Əziyyət çəkib ayağa qalxmasın deyə masabəyi mikrafonu əyləşdiyi yerdə ona təqdim etdi. Qonaq qəfil sözvermədən özünü itirdi, çünki yeməyin şirin yerindəydi, ovurdları küftə kimi şişmişdi. Udmaq da mümkün deyil, çıxarmaq da. Bir tərəfdən də kinokamera üzərinə tuşlanıb, məclis əhli ona baxır. Elə o vəziyyətdə də boğuq səslər çıxardı, bilinmədi sağlıq dedi, ya qəfil başının üstünü kəsən masabəyiyə, ya bu epizodu geniş planda çəkən kinooperatora söydü.

Pəhriz saxlayanlar, içməyənlər isə bu imkandan məhrumdur, ağıza bir-iki tikə qoyandan sonra daha getmir, doyublar. Toy isə hələ təzə başlayıb, masaların üstü hələ əl dəyməmiş fərqli yeməklərlə doludur. Ardı da gəlir. Bir adam nə qədər ət yeyə bilər? Uzaqbaşı 250-300 qram. Amma süfrəyə baxanda görürsən ki, ətlə yanaşı, toyuq, qril, balıq, soyutma ət və ardı-arası kəsilməyən kabablar, üstəlik, sonda plov və onun da içində yenə ət gətirilir. Müxtəlif salatlar, meyvələr, tortlar, içkilər hamısı yekunda bir mədəyə gedir. Axşam orada nəyin baş verəcəyi bəlli deyil. Dəfələrlə baş verən qida zəhərlənmələri, içilən araqdan sonra itirilən iş qabiliyyəti, başağrıları, ürək bulanmaları. Ay ərzində 3-4 toya getmək kifayət edir ki, vücudun əndazədən çıxsın, zorla nəfəs alasan. Sağında-solunda azmı görürsən belə adamları?

Eyforiyadan vəcdə gəlib, həlalik vecinə deyil, bir istəyi var, istəyir, hamı desin ki, onun oğlunun toyunda yemək-içmək sel kimi axırdı, quş südü – can dərmanı istəsəydin, “yoxdu” sözü yox idi, beş-altı bərkgedən müğənni vardı.

Beləliklə, yorğanın uzunluğunu unudur, sonra da ayağını uzadıb rahatlanmaq istəyəndə görür ki, səhv eləyib.





Müəllif: Araz Xudiyev

### Mentalitet qulları

Əhalinin böyük əksəriyyəti ürək bulandıran belə toyların əleyhinədir. Təbii, mühafizəkarlar, mentalitet qulları da var. Onların ilk sözü budur ki, toylar xalqımızın milli adət-ənənəsidir, minillik tarixi var, milli-mənəvi dəyərləri qorumaq isə hər birimizin borcudur.

Əcaba, özgə millətlər toy eləmirmi, şad gününə dost-tanışı çağırıb yeni ailə quranlara səadət, xoşbəxtlik arzulamırmı? Hamısında var.

İnkişaf etmiş xarici dövlətlərdə evlənmə kimə bəlli deyil; ailələrin tanışlığı, nikah, ailə və dostlarla kiçik mərasim, bal ayı və normal həyata dönüş.

İtalyan-amerikan yazıçı Mario Püzonun “Xaç atası” romanında (həmçinin bu roman əsasında çəkilmiş filmdə) don Vito Korleonenin evində onun qızı Konni və Karlo Rissinin toy məclisi təsvir olunur. Qonaqlar yeyib-içir, şənlənirlər. Ona görə şənlənirlər ki, bir azdan durub toya ən azı 50-dən, 100-dən pul yazdırmayacaqlar. Onlar nəinki toya pul salmayacaqlar, əksinə, bu toydan yararlanacaqlar. Çünki xaç atası kimi tanınan Vito belə xırdaçılıqlardan uzaqdır. O, siciliyalıların adətinə uyğun olaraq toy əhlinin, dost və həmkarların xahişlərini dinləyib həllinə göstəriş verir. Xahişə gələnlər çox gözəl bilirlər ki, toyun yiyəsi öz qızının toyunda kiminsə sözünü yerə salmayacaq, problemin həlli kimdən asılıdırsa, ona “imtinaolunmaz təklif” verib məsələni yerindəcə həll edəcəkdir. O toyda da rəqs edib, halay çəkir, sağlıqlar deyirlər. Sonra bəy gəlinlə çıxıb deyəgülə evinə yollanır.

Bizdə gəlinaparma necədir? Qız adamı kəsir qapının ağzını, bəydən iki yüz-üç yüz almayınca gəlini buraxmır. Doğmasını, əzizini pul qarşılığında satmağa bənzəyirsə, kimə lazımdır bu adət? Təkcə qapının ağzını kəsmək deyil ki, küçədə də azyaşlıları buna vadar edənlər var. Bəyi oğurlayıb pul tələb etmək də var. Bütövlükdə, belə adətlərə mentalitet qulu olmaqdansa, həmin əməlləri törədənləri cinayət məsuliyyətinə cəlb etməyin vaxtı çatmışdır.

### Hələ biri də çıxıb: Ciyərqapma!

Toydan bir gün əvvəl keçirilən mərasimdir, kəsilən malın içalatının yeyilməsinə xidmət edir. Yeyilsin, amma “qapmaq” nədir? İnsan övladı məgər bu qədər alçalıb ki, ciyəri qapır?

Hansını deyəsən: bitmək bilməyən elçilik, həriverdi, nişanqoydu, xınayaxdı, qız toyu, oğlan toyu və sair məclislər. Sanki Hindistan milyarderi Mukeş Ambani oğlu Anand üçün toy hazırlıqlarındadır. Sosial şəbəkələrdə qeyd edildiyi kimi, iki gəncin ailə qurmasına milyon dollarla xərc gedib, Anandla sevgilisi Radhikanın ilk izdivac məclisi olan gün evlənən başqa cütlüklər artıq oğul-uşaq yiyəsidirlər, bəziləri ikincini gözləyirlər, amma Anand hələ Radhikaya “Xoş gəlmisən”, – deməyib. İmkanı olanlar el qınağından çəkinməsələr, yəqin ki, milyarder Mukeş Ambani kimi oğluna toy eləyər. Şifahi xalq ədəbiyyatında təsvir olunan toylar kimi. Nağıl, ya dastan qəhrəmanı əzab-əziyyətli yollardan keçərək yarına qovuşur, mərhəmətli padşah, o da olmayanda bəyin yeddi arxa dönəni müqəddəs əzabkeşlərin vüsala qovuşması üçün qırx gün, qırx gecə toy eləyir, hamı yeyib-içir. İş-güc tökülüb qalır. Budurmu mentalitet?

İndiki dövrdə toya kimi müsibətləri qoyuram bir qırağa. Tutaq ki, qız ərə veririk. Öncə oğlanın nəslini araşdırma, arvadların tanışlığa gəlməyi, kişili-arvadlı elçilik, nişan bazarlığı, nişan, qurbanlıq, qızın ad günü, söz-söhbət (baldız göz süzdürüb), ev bəzəmə, gəlinliyin seçilməsi, xına (10 barmağını havaya tutub xınalı gəzmə, ovuca baş hərf yazılma, qızın başına fırlanma), toy (dünyanın xərci, 85 cür təam, heç vaxt üzünü görmədiyin adamların “ot duşi” şıdırğı oynamağı).

Və nəhayət, 5 il sonra: oğlan tərəfi hələ də toy xərclərini, qız tərəfi cehizin kreditini ödəməkdədir.

*(ardı var)*



# Milli qürurumuzun möhürü, yaxud papağı ver papaqçıya...

Naxçıvanın qədim məhəllələrindən birindəki balaca bir emalatxanada 45 ilə yaxındır ki, İsmayıl kişi papaq tikir. Sənətini ürəkdən sevən sənətkar gördüyü işdən həm pul qazanmağı, həm də zövq almağı bacarır. Onun tikdiyi papaqlar gözəlliyi, keyfiyyəti ilə seçilir. Ömrünü bu sənətə həsr edən usta hazır papaq nümunələri ilə yanaşı, sifarişçinin zövqünə, sənətinə uyğun papaqlar da tikir. Papaqçılıq sənətini bu gün də qoruyub saxlayan usta deyir ki, istənilən sənətdə olduğu kimi, ömrünü bu sənətə həsr etmiş insanda gərək həvəs, istək olsun. Bunlar olmasa, keyfiyyətli iş də ortaya çıxmaz. İsmayıl kişi deyir ki, papaq başa yaraşıq verir, ümumiyyətlə, Azərbaycan kişilərinə papaq çox gözəl yaraşır. Həm də papaq xalqımız üçün ta qədimdən cəsarət, ləyaqət, şərəf rəmzi olub, hörmət simvolu sayılıb.

İsmayıl usta bizə bu sənətin tarixi barədə də məlumat verir. Deyir ki, tarixboyu ölkəmizdə papağın bir çox növlərindən istifadə edilib. Onların müxtəlif formaları və özünəməxsus adları mövcud olub. Məsələn, oğlan uşaqları üçün hazırlanan papaqlara "tərlik" deyirlər. Ancaq tərlik papaq qədər qalın olmur və açıq-qırmızı rəngdə bir qat toxunan formaya malikdir. Bu papaq formasının Səfəvi hökmdarlarının "Qızılbaş" ordusundan qalması zənn edilir. Milli geyimlərimizin mühüm elementlərindən biri olan araqçını isə ictimai yerlərdə papaqsız taxmaq ədəbsizlik hesab olunurdu. Belə baş geyimlərinin forması həm də onun daşıyıcısının sosial vəziyyətinin göstəricisi sayılırdı. Məsələn, xalqımız arasında ən geniş yayılan papaqlardan biri də motal papağı olub. Ondan, əsasən, yoxsul təbəqəyə mənsub insanlar və çobanlar istifadə edərdi. Bəy zümrəsinin nümayəndələri və varlı təbəqə isə buxara papaq geyinirdi. Onları Buxaradan gətirilmiş dəridən konus şəklində və ya iti-uclu formada hazırlayırdılar. Belə papaqlar şəhər aristokratiyası üçün də xarakterik idi. Buxara papağa "şiş papaq" və ya "bəy papaqları" da deyilirdi.



Papaqçı onu da diqqətimizə çatdırır ki, papaqların hazırlanmasında müxtəlif növ materiallardan istifadə edilsə də, dəridən hazırlanan papaqlar daha çox üstünlük təşkil edir. İndi müasir dövrün tələblərinə uyğun olaraq yeni papaq növləri yaradılır. Əvvəllər kişilər daha çox buxara, çapma, şiş, sarıq kimi papaq növlərinə üstünlük verirdilər. Bu gün isə, əsasən, kepka tipli papaqları daha çox sifariş edirlər. Təbii ki, günümüzün dəb və zövqünə uyğun olaraq bu növlərin bir çoxu istifadə edilmir. Bununla belə yaşlılar arasında buxara papaqları tikdirmək istəyənlər də az deyil.

Qeyd edək ki, min illərlə yaşı olan papaqlarımız bu gün də öz dəyərini saxlayır. Hər il muxtar respublikamızda keçirilən xalq yaradıcılığı günlərində papaqçılıq pavilyonlarının açılması, tamaşaçıların bu nadir sənət nümunələrinə böyük maraq göstərməsi, el məclislərində milli geyimlərimizdən, o cümlədən baş örtüklərindən geniş istifadə edilməsi xalqımızın milli dəyərlərinə olan ehtiramından xəbər verir. Papaqlar məişət mədəniyyətimizdə elə dərin izlərlə kök salıb ki, ondan istifadə bu gün də aktualdır.

İsmayıl kişinin sözlərinə görə, papaqçılıq həmişə çətin olub, dünən də, elə bu gün də. Düzdür, qış aylarında işimiz pis olmur, şükür Allaha, özümüzü dolandırırıq, amma yay aylarında bir az çətindir.

İsmayıl usta hərdən yorulsa da, papaqçılıq sənətini seçdiyinə görə peşman deyil. Usta deyir ki, indi çox az adam papaq tikir, çünki çox az adam papaq qoyur. Amma nə yaxşı olardı ki, milli adət-ənənələrimizi, qədim papaqçılıq sənətini yaşatmaq üçün hər kəs ömründə bir dəfə özünə papaq tikdirib həm də qarderobunu zənginləşdirərdi, həm də papaqlı babalarımızın ruhunu şad edərdi.

✍ **Gülcamal TAHİROVA**

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
## *Naxçıvan Dövlət Universiteti aşağıdakı dekan və kafedralar üzrə müsabiqə elan edir*

***Dekan vəzifəsini tutmaq üçün***

1. Xarici dillər fakültəsi

***Kafedra müdiri vəzifəsini tutmaq üçün***

1. Azərbaycan ədəbiyyatı kafedrası
2. Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrası
3. Rus və Şərq dilləri kafedrası
4. Texnologiya kafedrası
5. Xüsusi hüquq kafedrası
6. Xalq çalğı alətləri kafedrası

***Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün***

1. Azərbaycan dilçiliyi kafedrası – dosent – 1 yer, dosent – 1 yer (0,5 ştat);
2. Azərbaycan ədəbiyyatı kafedrası – dosent – 1 yer (0,5 ştat), baş müəllim – 1 yer;
3. Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası – dosent – 2 yer, dosent – 1 yer (0,5 ştat);
4. Azərbaycan tarixi kafedrası – baş müəllim – 1 yer, müəllim – 1 yer;
5. Ümumi tarix kafedrası – dosent – 2 yer;
6. Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrası – baş müəllim – 2 yer;
7. Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrası – dosent – 1 yer (0,5 ştat);
8. Elektroenergetika mühəndisliyi kafedrası – dosent – 1 yer ;
9. Elektronika və informasiya texnologiyaları kafedrası – baş müəllim – 3 yer;
10. İngilis dili və tərcümə kafedrası – baş müəllim – 1 yer;
11. Roman-German dilləri kafedrası – dosent – 1 yer;
12. İngilis dili və metodika kafedrası –müəllim – 1 yer;
13. Beynəlxalq ticarət və menecment – baş müəllim – 1 yer;
14. Mühasibat və maliyyə kafedrası –professor – 1 yer, professor – 1 yer (0,5 ştat), baş müəllim – 1 yer;
15. İqtisadiyyat və marketinq kafedrası – baş müəllim – 1 yer;
16. Orkestr alətləri və dirijorluq kafedrası – dosent – 1 yer, baş müəllim – 1 yer;
17. Musiqinin təlimi kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)
18. Xalq çalğı alətləri kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)
19. Təsviri incəsənət kafedrası – baş müəllim – 1 yer;
20. Fortepiano kafedrası – professor – 1 yer (0,5 ştat);
21. Məşqçilik kafedrası – dosent – 1 yer;
22. Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrası – dosent – 1 yer (0,5 ştat);
23. Kimya kafedrası – dosent – 2 yer;
24. Biologiya kafedrası – professor – 1 yer (0,5 ştat), dosent – 1yer, dosent – 1 yer (0,5 ştat);
25. Coğrafiya kafedrası – baş müəllim – 1 yer, müəllim – 1 yer;
26. Baytarlıq təbabəti kafedrası – dosent – 1 yer;
27. Xüsusi hüquq kafedrası – baş müəllim – 1 yer;
28. Beynəlxalq münasibətlər kafedrası – dosent – 1 yer (0,5 ştat);
29. Fəlsəfə və sosial iş kafedrası – baş müəllim – 1 yer, müəllim – 1 yer;
30. Əczaçılıq və biokimya kafedrası – baş müəllim – 1 yer (0,5 ştat);
31. Klinik fənlər və hərbi tibb kafedrası – dosent – 1 yer;

Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi***
***Telefon: (036)545-23-66/10-01***

## Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxs tərəfindən 14 noyabr 2024-cü il tarixdə hərraca çıxarılacaq əmlak haqqında məlumat

| Sıra № | Hərraca çıxarılacaq obyektin adı | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti və hərrac addımı (manatla) | Behin həcmi 5 (beş) faiz (manatla) |
|---|---|---|---|---|
| 1. | 0.0452 ha torpaq sahəsində yerləşən, ümumi sahəsi 132.29 kv.m olan fərdi yaşayış evi | Naxçıvan şəhəri, 20 yanvar küçəsi, ev 30 | 75000 / 750.0 | 3750.0 |

**Qeyd:**

• Hərraca qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifariş və digər zəruri sənədləri hərracın başlanmasına ən geci 3 bank günü qalanadək təqdim etmiş və ipoteka predmetinin ilkin satış qiymətinin 5 (beş) faizi həcmində beh keçirmiş hüquqi və fiziki şəxslər buraxılırlar.

• Sifarişlər Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxs tərəfindən Naxçıvan şəhəri, 8-ci küçə,1/5A ünvanında 18 oktyabr 2024-cü il tarixdən 5 noyabr 2024-cü il tarixədək saat $9^{00}$-dan – $18^{00}$-dək qəbul olunacaqdır.

• Hərracda iştirak etmək istəyən şəxslər sifarişə aşağıdakı sənədləri əlavə edirlər:

1. Satıcı tərəfindən müəyyən edilmiş hesaba (AZ90AIIB380800H9448732527500) behin köçürülməsini təsdiq edən ödəmə sənədinin surəti;
2. Hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;
3. Fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;
4. Hərraclarda iştirak etmək üçün sifariş hüquqi və fiziki şəxsin nümayəndəsi tərəfindən verildiyi təqdirdə o özünün sifarişçisi adından hərəkət etmək hüququnu təsdiq edən sənəd təqdim etməlidir.

• Hərrac günü sifarişçilərin hərrac zalına daxil olmaq üçün qeydiyyatı saat $10^{45}$-dək aparılır.

• Hərrac 14 noyabr 2024-cü il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin inzibati binasında keçiriləcəkdir.

• Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxsin *@nmr_herracmerkezi* "Instagram" hesabından, yaxud *auksion.nmr.az* elektron portalı və *htm@nemlak.gov.az* e-mail ünvanından ala bilərsiniz.

***Əlaqə telefonu: (036) 545-01-38; (060) 304-20-13.***

## *İtmişdir*

Şərur rayonu, Yengicə kəndində yaşamış Əsədova Rübabə Ələkbər qızının adına verilmiş JN-423A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Həmzəyev Baba Orucəli oğlunun adına olan JN-2316A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Hüseynov Əliyəddin Nəsib oğluna məxsus Şahbuz rayonu, Kükü kəndində yerləşən torpağın JN-279A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Siyaqut kənd sakini Mədətov Tofiq Malik oğlunun adına olan JN-378A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində yaşamış Quliyeva Yəməntac İsmayıl qızının adına olan JN-671 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Behrud kənd sakini Quliyev Bayram Zülfüqar oğlunun adına olan JN-105 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kükü kəndində Şükürov Bəxtiyar Allahverdi oğlunun adına verilmiş JN-050 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində yaşamış Quliyev Məmmədqulu Yaqub oğlunun adına olan JN-672 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kənd sakini Paşayeva Sənəm Səfəralı qızının adına olan JN-210 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində Quliyev Əbülfəz Yaqub oğlunun adına olan JN-670 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Alışar kənd sakini Hüseynov Qafar Abbasəli oğlunun adına verilmiş JN-419A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Yuxarı Əylis kənd sakini Kazımov Nizami İsmayıl oğlunun adına verilmiş JN-535C nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhidməmməd kənd sakini Quliyev Hüseyn Əhməd oğlunun adına olan JN-255A nömrəli, 10200078 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

"Araz Karqo" MMC-yə məxsus 19.04.2021-ci ildə verilmiş XL-003 nömrəli xüsusi lisenziya itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

**Baş redaktor:**
**SARA ƏZİMOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***info@serqqapisi.gov.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 317

***Nömrəyə məsul:*** **Ramiyə Əkbərova, Əli Cabbarov, Türkanə Əsədova**
***Dizayner:*** **Tacirə Vəliyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*